


Ruhən şəhid ANAnın NURLANmış xatirələri

Ruhən şəhid ANAnın NURLANmış xatirələri

Bakı-2022

Kitabın müəllifi:
Şəhid Nurlan Mustafayevin anası
Rahilə Ramazanova
Kitab Şəhid anasının övladı haqda xatirələrini əks etdirir.

Redaktor: Lamiyə Rövşənqızı
Dizayner: Fariz Məhərrəmov

Ruhən şəhid ANAnın
NURLANmış xatirələri.
Bakı, "Gənclik", nəşriyyatı, 2022, 112 səh.

İSBN: 978-8020-1717-5-1

XÜSUSİ TƏYİNATLI QÜVVƏLƏRİN KAPİTANI ŞƏHİD MUSTAFAYEV NURLAN HAMLET OĞLU





1990-cı il iyul ayının 22-də Sumqayıt şəhərində anadan olub.

1997-ci ildə Bakı şəhəri Nəsimi rayonu Poladi Saleh adına 159 saylı orta məktəbə daxil olmuş, 2005-ci ilə qədər həmin məktəbdə təhsil allb. 2005-ci ildən 2008-ci ilədək Cəmşid Naxçıvanski adına Hərbi Liseydə təhsilini davam etdirib.

2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub.

2010-cu ildə təhsilini davam etdirmək üçün dövlət xətti ilə Almaniya Federativ Respublikasının Ali Hərbi Məktəbinə göndərilib. 2013-cü ildə həmin məktəbi "Motoatıcı" ixtisası üzrə birincilikla başa vurub. Almaniyada təhsilini "Buraxılışın ən yaxşı əcnəbi kursantı" sertifikatı, atıcılıq və qaçış üzrə qızıl nişanlarla bitirib.



Xidmətini davam etdirmək üçün Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzinin "Zabit ixtisası" kursuna göndərilib. Kursu bitirdikdən sonra, "Leytenant" rütbəsini alaraq xidmətini davam etdirmək üçün Murovdağa N saylı hərbi hissəyə göndərilib.

2014-cü il iyul ayının 25-dən 2016-cı il ilin dekabr ayının 3-dək müxtəlif hərbi hissələrdə motoatıcı tağım komandiri vəzifəsində xidmət edib.

03.12.2016-cı il tarixində «Təməl Xüsusi Təyinatlı» kursuna daxil olub. 26.04.2017-ci il tarixində həmin kursu birinciliklə bitirib.

Xüsusi təyinatlı Qüvvələrin tərkibində müxtəlif hərbi hissələrdə xidmət edib, kəşfiyyat üzrə Qərargah rəisinin müavini vəzifəsinə qədər yüksəlib.

2018-ci ildə Türkiyənin İzmir şəhərində 53 ölkənin Xüsusi təyinatlı qüvvələrinin qatıldığı

"EFES-2018" təlimində iştirak edib. Həmin təlim-yarışda Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin hərbçiləri 1-ci yerə layiq görülüb. Təlim-yarışda fəal iştirakına görə sertifikat və Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Zakir Həsənov tərəfindən xüsusi hədiyyə ilə təltif olunub.

Rumıniyada, Türkiyədə, Gürcüstanda keçirilən "Dağ xizəkçiliyi", xizək sürmə və qarlı əraziləri ötüb keçmək, axtarış-xilasetmə və təxliyyə tədbirlərinin təşkili, qarlı ərazidə sığınacağın qurulması və gecələmək üzrə təlimlərdə iştirak edərək, təlimləri birinciliklə bitirib, sertifikatlarla təltif olunub.

27.09.2020-ci il tarixində II Qarabağ müharibəsi başlanan gündən Vətən torpaqlarının azad olunması uğrunda döyüşlərə qatılıb. Müxtəlif rayonların və strateji obyektlərin azad olunmasında xüsusi şücaət göstərərək, 11.10.2020-ci il tarixində Hadrut uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhid olub.

Ailəli idi. Ölümündən sonra oğul övladı dünyaya gəlib. Oğluna öz adı verilib.

II Fəxri Xiyabanda dəfn olunub.

TƏLTİFLƏRİ:

2013-cü ildə «Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi» yubiley medalı

2018-ci ildə «Azərbaycan Ordusunun 100 illiyi» yubiley medalı

2020-ci ildə III dərəcəli «Qüsursuz xidmətə görə» medalı

2020-ci ildə «Azərbaycan Bayrağı» ordeni

2020-ci ildə «Vətən uğrunda» medalı

2020-ci ildə «Cəbrayılın azad olunmasına görə» medalı

2021-ci ildə «Kəlbəcərin azad olunmasına görə» medalı

2021-ci ildə «Füzulinin azad olunmasına görə» medalı

2021-ci ildə «Xocavəndin azad olunmasına görə» medalı

ÖN SÖZ

Adətən kitablara ön sözü tanınmış filoloqlar, ədəbiyyatçılar və ya tənqidçilər yazarlar. Lakin bu kitab mənim Nurlan haqqında xatirələrim olduğu üçün, ön sözü də özüm yazıram. Kitab canımın bir yarısı olan Oğlum Nurlan və eyni zamanda Azərbaycanın Zəfər tarixinə adını qızıl hərflərlə yazmış Xüsusi Təyinatlı Qüvvələrin Kapitanı Şəhid Nurlan Mustafayev haqqındadır.

2020-ci ilin 44 günlük Zəfər müharibəsi bizi bütün dünyaya tanıtdı. Azərbaycan bu müharibədəki qələbəsi ilə özünü bir millət, bir dövlət kimi təsdiq etdi. Böyük Zəfər idi, böyük Qələbə idi. Lakin heç də ucuz başa gəlmədi, heççç... 3000-nə yaxın Şəhid, 1000-dən çox qazi, yüzlərlə psixoloji travma almış müharibə iştirakçısı və nəhayət həmişə dediyim kimi "hər Şəhidin arxasınca Şəhid olan Analar" – bu müharibənin xalqımıza vurduğu sağalmaz yara, ağır zərbə idi.

Kitabda, mənim və Nurlana yaxın olan insanların Nurlan haqqında xatirələri yer alıb. Hərbçi olduğu üçün yanımda çox az oldu. Məndən kənarda böyüdü. Çalışmışam ki, Onun haqqında yadımda qalan hər bir xatirəni qələmə alım. Qısa ömründən qalan hər bir xatirəni... Kimin üçünsə əhəmiyyətsiz görünəcək xatirəni belə qaçırmamağa cəhd etmişəm.

NURLANMIŞ XATİRƏLƏR

Mənim üçün Səndə hər şey gözəl idi, Sənin lə hər şey gözəl idi, Nurlan... Sizin uşaqlığınız çətin keçdi, çox çətin. Həmin illərdə ümumi olaraq respublikada vəziyyət qarışıq idi. Ərzaq qıtlığı, hətta çörəyə növbə, limit vardı. Sonra atan xəstələndi, 1 il yataqda qaldı. Atan rəhmətə gedəndən sonra baban iflic keçirdi, 2 il yatağa məhkum oldu. Varlığı ilə nəfəs aldığı bircəcik oğlunu itirən nənənin göz yaşları bitmədi. Bütün bunlar siz körpələrin - Sənin lə Fuadın gözləri qarşısında baş verirdi. Maddi və mənəvi baxımdan ağır bir durumda böyüdünüz. Sənin Şəhadətindən sonra o qədər "qohumlar" üzə çıxdı ki... O qədər "Şəhidim", "Eloğlum", "Qohumum" deyib yiyələnənlər oldu ki... Amma o zaman, o balaca daxmada, kasıbçılıq içində, xəstəliklərlə üz-üzə çırpınanda tək qalmışdıq...

Çox kasıb idik. Yoldaşım rəhmətə gedəndən sonra küçəmizdə meyvə-tərəvəz alveri edən bir qonşum məni çağırıb kənarda yeşiyə yığılmış, nisbətən xarab olmuş meyvələri göstərib dedi: "Məndə hər gün belə meyvələr-filan qalır. Pul almayacam. İstəsən onları apar, uşaqlar yesin". Səmimiyyətinə inandığım üçün sakitcə: "Mən uşaqlarıma çürük meyvə yedizdirməyəcəm. Nə vaxt yaxşı meyvən oldu, xəbər edərsən, gəlib alaram" dedim...

Çox şükür ki, biz sınmadıq. Əziyyətlə, dişimizlə, dırnağımızla hər şeyi yoluna qoyurduq.

Yavaş-yavaş normal həyata dönürdük. Sanki hər şey yoluna düşürdü. Sənin toyundan sonra bir gün Masazırdan bibingildən gəlirdik. Sən Günayla öz maşınında, biz isə Fuadın maşınında hərəkət edirdik. Xırdalan dairəsində siqnal verərək ayrıldınız. Siz Xırdalana evinizə, biz Alatavaya evimizə... Mən hönkürtü ilə ağlamağa başladım. O an xöşbəxtlikdən hönkürürdüm. Hər birinizin işiniz, eviniz, maşınınız, ailəniz var, düşündüm... Mən həyatımı bunlar üçün fəda etmişdim... Mən sizi tək böyütdüm. Bütün gücümü sizin yetimliyinizi hiss etməməyiniz, atalı uşaqlar kimi böyüməyiniz üçün səfərbər etdim. Hər şeyin ən yaxşısını sizə yedirtməyə, geydirməyə çalışdım. Yaxınlarımın dedikləri kimi həm ana, həm ata oldum. Tək bir ananın deyil, atanın da etməli olduqlarını etdim. Sizi hamıdan qorudum, hətta atanızdan da "qoruyurdum". Həmişə yarı zarafat, yarı ciddi "imkan vermirsən ki, uşaqlarıma bir kəlmə söz deyim" deyərdi. Sizin uşaqlıq illərinizdə kasıblıq içində olduğumuzdan, atana yalvarardım ki, "onsuz da uşaqları maddiyyat baxımından lazımi təmin edə bilmirik, heç olmasa onlara sevgini, nəvazişi bol eliyək"...

Sənin gedişin hər şeyi alt-üst elədi. İndi heç nəyin mənim üçün fərqi yoxdur. Gecədir-gündüzdür, yaydır-qışdır, soyuqdur-istidir... Heç nəyə sevinmirəm. Ürəkdən gülməyi unutmuşam. Sanki ürəyimdəm iri bir daş sallanıb, həmişə mənə ağırlıq verən, qəddimi düzəltməyə

qoymayan, daim Sənsizliyi xatırladan iri bir daş... Ancaq tünd rənglərə bağlanmışam, ən çox da qaraya...



Vətən müharibəsinin 1-ci ildönümündə təşkil edilmiş Zəfər yürüşündə Sizlər də ruhən iştirak etdiniz, şəkillərniz isə yürüşdə əllərdə keçdi. Həmin şəkillərə o qədər baxıram ki... Xarı bülbül rəngli, Sizlər isə rəngsiz... Bunu kim və niyə belə düşünüb bilmirəm. Amma mənim yozumum belədir ki, bu rəngsizlik Sizlərdən geri qalanların həyat tərzinin təzahürüdür.

Sənsizlik belimi büksə də, başımı dikəltdi. Saçları ağarmış başımı... Zamanla yaxınlar ehtiyatla "saçlarına rəng qoyasan bəlkə" deyirlər. O saçlar səndən qalan yadigarımdır. Hər telimdə bir Nurlan var, vaxtsız ağarmış hər telimdə bir nakam Nurlan... Ona görə də toxunulmazdırlar. Mənə bu dünyada "saçlarını boya" desə, sözünə əməl edəcəyim tək bir nəfər var - Fuad. Əminəm

ki, Fuad da heç vaxt mənə o sözü deməz...

Sakitlik, təklik istəyirəm... İstəyirəm hayqırım, qışqırım - amma heç kəs eşitməsin... İstəyirəm hönkürüm, ağlayım - heç kəs görməsin... Sənin üçün çox darıxıram, çox... Dünyada ən çarəsiz dərd ölən biri üçün darıxmaqdır. Hər şeyin çarəsi var, tək bunun yox...

Övlad canın bir hissəsidir. Candan can ayrılmaq, candan olmaq deməkdir. Amma dözməkdən başqa çarəm yoxdu. Fuad üçün yaşamalıyam, ortalıqda tənha qoyub getdiyin Fuad üçün... Gözlə məni canımın parçası... Hər ötən gün Sənə döğru gəlirəm, gözlə...

Kitabı çox çətinliklə başa gətirdim. Hər dəfə xatirələri yazdıqca, redaktə, korrektə elədikcə, sanki hər dəfə xatirələrdəki həmin hadisələrin içində oldum, həmin anları təkrar-təkrar yaşadım... Nurlanlı anları... İçim sızım-sızım sızıldaya-sızıldaya, əsasən də işdə yazdığım üçün işdəkilərdən gizlətməyə çalışaraq göz yaşlarımı, nisgilimi, acımı içimə axıda-axıda yazdım bu kitabı...

Param-param olmuş bir Ana ürəyinin, Ana yaddaşının məhsuludur bu kitab... Ruhən şəhid olmuş ANAnın NURLANmış xatirələri yer alıb bu kitabda... Hər şeyi mükəmməl olan Nurlanım haqqında, sadə bir xatirə kitabı...

MÜHARİBƏ İLƏ DOĞMALAŞANLAR

Təəssüf ki, Nurlan Mustafayevi şəhid olduqdan sonra tanıdım. 2020-ci il Vətən Müharibəsinin qızğın vaxtları idi. Qeyri-rəsmi xəbərlərin yayılmaması, düşmənə hərbi sirrin verilməməsi səbəbi ilə ölkə ərazisində internet məhdudlaşdırılmışdı. Biz arxa cəbhədə olanlar heç şəhidlərimizdən də xəbər tuta bilmirdik. Gücümüz informasiya müharibəsinə çatırdı. Bacardıqca, müxtəlif yollarla internetə girir, sosial platformalarda ermənilərlə döyüşürdük. Bunun üçün daha çox WhatsApp-da qruplar yaradır və orada səfərbər olub, bir-birimizə məlumatlar ötürürdük.

Oktyabr ayı idi. Qərbi Azərbaycanlı xanımların birləşdiyi qruplardan birində bir məlumat oxudum. Deyilirdi ki, əslən Qərbi Azərbaycandan olan bir igid şəhid olub. Və, Nurlanın tərcümeyi-halı qeyd olunmuşdu. Onun tərcümeyi-halı vasitəsilə sözbəsöz Nurlanı tanıyırdım. Oxuduqca illərin əziyyəti, yuxusuz gecələr, şəhadətə gedən yolda canı bahasına göstərdiyi şücaət, qəhrəmanlıqlar - hamısı gözümün önünə gəlirdi. Şəklini də göndərmişdilər. Boylu-buxunlu, iti baxışlı, cəngavər kimi bir oğul idi. 4 dil bilirdi Nurlan. Hərbi peşənin sirlərinə yiyələnmək üçün dünyanın ən aparıcı ordularında təlim keçib, dərs alıbmış. Cəmi 30 yaşı olsa da, bir ömürə nəyi sığdırmaq mümkündürsə, ondan artığını

etmişdi. Biləndə ki, cəmi 7 aydır ailə qurub, bixtiyar gözümdən yaş süzülürdü. Bu xəbəri aldığım gün, Nurlanı qiyabi tanıdığım gün - ən yaxın adamımı itirmiş kimi hiss edirdim özümü. Mən də oğul anasıydım. Düşünürdüm ki, axı, belə bir oğulu boya-başa çatdırıb, dövlətə, Vətənə layiqli bir zabit, əsl vətəndaş yetişdirmək bir ana üçün, həm də başının sahibini vaxtsız itirmiş bir ana üçün nə qədər məşəqqətli bir yol deməkdir. İndi görəsən o ana hardadır? Nə haldadır?

Elə bu düşüncələrlə Nurlanın anasının telefon nömrəsini tapdım.Bir neçə dəfə əlaqə saxlasam da, görüşümüz alınmadı. Bir müddət sonra nəhayət ki, danışıb görüş təyin etdik. Çəkiliş Nurlanın yenicə aldığı, yeni qurulmuş ailəsi üçün hazırlanmış evdə baş tutacaqdı.

Bu evə getmək çox ağır gəlirdi. Amma dişim bağırsağımı kəsə-kəsə getdim. Yerlə-yeksan olmuş bir ailə vardı qarşımda. Saçları bəlkə də bir gündə bu dərəcədə ağarmış gözüyaşlı ana, cəmi 7 ayın gəlini, bətnində Nurlanın üzünü görə bilməyəcəyi övladını daşıyan gənc qadın və beli bükülmüş qardaş. Çox dəhşətli mənzərə idi.

Nurlangilin evinə ayaq basdığımda canım daha çox yandı. Doyunca oturmadığı evinin təzə təmir olunmuş otaqlarında bir çox əşyalardan hələ də qırmızı lent sallanırdı. Hər yan Nurlanın xatirəsi ilə bəzənmişdi. Fotolar, rəsmlər, medallar, fəxri fərmanlar, diplomlar, sertifikatlar və divardan asılmış hərbi forması..

Ürəyim yenə sızıldadı. Çətinliklə də olsa,

gözümüzün yaşını silə-silə çəkilişə başladıq. Həmin video filmə baxmaq istəyənlər, MissiyaTV-dnin youtube səhifəsində "şəhid kapitan Nurlan Mustafayev" yazmaqla izləyə bilərlər.

Mənim isə o görüşdən Nurlanın anasının bir sözü qalmışdı, yaddaşımda.

"Hər şəhidin arxasınca bir ana da şəhid olur! Biz də canlı şəhidlərik" - belə demişdi, Rahilə xanım.

Elə həmin gündən Nurlanın ailəsi ilə doğmalaşdıq. Qan töküb, can verilən müharibə bizim kimi minlərlə insanı bir gündə doğmalaşdırmışdı. Nurlanın oğlu Nurlan dünyaya gələndə onun üçün xonça tutduq, qarşılamağa izdihamla getdik.

Balaca Nurlanın gəlişi ilə "bir ölər, min dirilərik!" dedik.

Kapitan Nurlan Mustafayev Azərbaycanın hərb tarixinə, Vətən müharibəsində qazandığımız şanlı Zəfər tariximizə adı qızıl hərflərlə yazılmış bir qəhrəmandır. Onu hər zaman rəhmətlə, ehtiramla anıb, əlimizdən gəldiyi qədər doğmalarının yanında olmağa çalışacağıq.

Ruhun şad olsun, qəhrəman!

Lamiyə Rövşənqızı
jurnalist







Nurlan 1990-cı ilin iyul ayının 22-də Sumqayıt şəhərində anadan olmuşdu. Uşaqlığının ilk illəri Sumqayıtda keçdi. Nurlanın doğulduğu illər Respublikanın ağır ictimai-siyasi dövrünə təsadüf edirdi. 1988-ci ilin sonlarında Qərbi Azər-

baycanlı soydaşlarımız, o cümlədən, mənim qaynatamgil doğma dədə-baba yurdlarından qovuldular. Yurd-yuva həsrətli soydaşlarımız respublikanın hər tərəfinə səpələndilər.

Eyni zamanda Qarabağda Topxana meşələrinin qırılması ilə əlaqədar, xalq ayağa qalxaraq Azadlıq meydanına axışdı, meydan hadisələri başladı. Sonradan bu hadisələr Milli azadlıq hərəkatına çevrildi. 1988-1991-ci illərdə xalqını, millətini sevən, Vətənini azad görmək istəyən hər bir kəs azadlıq hərəkatına qoşulurdu. Sözsüz ki, mən də meydandaydım. Nurlan sanki ana bətnində Azadlıq meydanında baş verən hadisələrin həyəcanını, 1990-cı ilin Qanlı 20 Yanvar hadisələrinin acılarını yaşadı. Nurlanın uşaqlıq illəri ölkədə tələtümlü, siyasi və iqtisadi cəhətdən qarışıq dövrə təsadüf etdi. Ölkədəki xaos, sanki o dövrün uşaqlarının da firavan, bəxtəvər böyümələrini əngəlləyirdi.

1996-cı ildə Bakıya köçdük. Nurlanın uşaqlıq illərinin qalan hissəsi Yasamalda, 2-ci Alatava adlanan qəsəbədə keçdi.

1997-ci ildə Bakı şəhəri Nəsimi rayonu Poladi Saleh adına 159 saylı orta məktəbə daxil olmaq üçün məktəbə getdik. O zamanlar məktəbə qəbul indiki kimi elektron qaydada deyildi. Məktəbin direktoru və bir neçə müəllim uşaqla tanış olur, bəzi suallar verirdilər. Direktor Nurlandan adını, soyadını soruşdu və bir neçə bu səpgili suallardan sonra "Bizə bir şeir deyə bilərsən?" - deyə soruşdu. Nurlan "Bilərəm" deyərək, mənim göz-

ləmədiyim, çoxdan ona öyrətdiyim "Millətim" şerini dedi. Direktor və müəllimlər şeirdən və Nurlanın şer deməsindən o qədər təsirləndilər ki... Direktor "Səhərdən "Xoruz", "Keçi", "Dovşan" şeirlərini dinləməkdən yorulmuşduq. Sən nə gözəl şeir dedin" deyərək, Nurlanın başını sığalladı. Altı ya yeddi bənddən ibarət şeirin o gün üçün aktual olan ilk və bu gün üçün aktual olan son bəndlərini xatırlayıram:

Bax bu xalqın harayına, hayına,
Bax bu xalqın qışa dönmüş yayına.
Neçə ildir kədər düşüb payına,
Başa qara bağlamasın millətim,
Yasa batıb ağlamasın millətim.

Bir gün gələr zülmün kökü kəsilər,
Quduz düşmən ayaq altda əzilər,
Qız-gəlinlər xonça tutub düzülər,
Qələbəni bayram edər millətim,
Qəmli günlər ötüb keçər, millətim.

Nurlan 2005-ci ilə qədər həmin məktəbdə təhsil aldı. Çox savadlı, çox intizamlı şagird idi. Valideyn iclaslarına gedəndə müəllimləri Nurlanı o qədər tərifləyirdilər ki, sevincimdən ağlayırdım...



Nurlan çox dürüst, ədalətli, vətənpərvər idi. Yalan danışmağı və yalan danışanları heç sevməzdi. Qayda-qanuna riayət etməyi, başqalarının da bunu etməsini istərdi. Küçədə gedərkən adi yol hərəkəti qaydalarına belə ciddi riayət edərdi. Nurlan hərbi həyatı seçdiyindən, sanki işindən irəli gələn "çətinliklər", "əziyyətlər" içində "bişərək" möhkəmlənmişdi, Onun içində sanki daha yaşlı, daha müdrik bir Nurlan vardı...

Hər hansı bir işə ürəklə yanaşar, işini heç vaxt yarımçıq qoymaz, yaxşılıq etməyi sevərdi.

Bir gün məhləmizdə qonşumuz hamamından samovarı çıxarıb təzələyirdi. Köhnə samovarı küçəyə çıxarıb məhlənin uşaqlarını çağırıb dedi ki, "Uşaqlar, bu samovarı diyirləyin aparın tinə qədər". Nurlanın 6-7 yaşı olardı. Mən də həmin vaxt damda ipə paltar sərirdim. Bir neçə uşaq, o cümlədən, Nurlan və Fuad samovarı diyirləməyə başladılar. Mənim uşaqlarım var gücü

ilə samovarı itələyirdilər. Bu vaxt qonşu həmyaşıdı Nurlana tərəf dönüb "özünü niyə öldürürsən, yalandan yapış get də, kim bilir ki, sən itələyirsən, ya itələmirsən" dedi. Nurlan oğlana tərəf dönüb tərs-tərs baxdı və var gücü ilə samovarı itələməyə davam etdi. Düzü, həmin an mənim ilk ağlımdan keçən "İlahi, mənim övladlarım gələcəkdə kimlərlə bir cəmiyyətdə yaşayacaqlar?" fikri oldu..Amma eyni zamanda Nurlanın baxışlarından onun reaksiyasını anlayıb, qürurlandım.

Atasını erkən itirən Nurlan maddi çətinliklərlə bağlı olaraq, yay tətillərində qardaşı ilə birlikdə restoranda ofisiant işləyirdi. Hər birinin qazandığını özünə xərcləmək məqsədilə, hərəsi üçün ayrıca konvert ayırıb, "Nurlan", "Fuad" yazmışdım. Hər gecə hərəsinin gətirdiyi pulları öz konvertinə qoyurdum. Sonuncu gecə pulları qoymaq üçün daxılı açanda, gördüm ki, daxılda bir konvert var. İkinci konverti nə qədər axtardımsa tapmadım. Əlimdəkinin kimin konverti olduğuna baxanda gördüm ki, konvertin üzərindəki ad silinərək "Ana" yazılıb...

HƏRBİ LİSEY İLLƏRİ

2005-ci ildə sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verdi. Liseyə 500 mümkün baldan 496 bal toplamaqla 2-ci nəticə ilə qəbul olundu. O zaman Türkiyənin Kara Harb okulundan müəllimlər ilk 10 nəticəni toplayanları

yenidən imtahan etdilər. Məqsəd, ən layiqlini Türkiyəyə təhsil almaq üçün aparmaq idi. 10 nəfər içəridə imtahan verir, valideynlər həyəcanla bayırda gözləyirdik. İmtahan başa çatdı. Hamı çıxdı, ən axırda türk müəllim Nurlanın çiynini qucaqlayaraq gəlirdi. Bizə yaxınlaşanda "Senin baban hangisi?" deyə soruşdu. İmtahana gələnlərin hamısı atası ilə gəlmişdi. Nurlanı isə Anası gözləyirdi. Nurlan "Babam yoxdu, anamla gəlmişəm" dedi. Türk müəllim mənə yaxınlaşıb "Sizin çocuq çok iyi yazdı" dedi. Lakin sonradan Türkiyəyə başqa bir çocuq göndərildi...

Liseydə oxuduğu müddətdə həmişə komandirin sağ əli oldu. Komandiri "Mustafayev istəsə 1 dəqiqəyə bölüyü yığar, istəməsə, 1 dəqiqəyə dağıda bilər" deyirdi.





Bir gün Komandiri mənə zəng edərək dedi: "Nurlan məndən xahiş edib ki, "Mənim hər hansı problemimə görə mənə cəza verin, anamı narahat etməyin". Lakin Siz sabah liseyə gəlməlisiz. Narahat olmayın, elə də ciddi məsələ deyil". Gecə səhərədək yata bilmədim. Səhər tezdən liseydəydim. Məlumat verdilər ki, kursant yoldaşı ilə aralarında yüngül bir anlaşılmazlıq olub. Kursant yoldaşı isə gözlənilmədən vuraraq Nurlana xəsarət yetirib. Qayda pozuntusuna görə və xəsarət yetirdiyinə görə şikayətçi olarıqsa, həmin kursant liseydən xaric oluna bilərdi. Hamı yığıldı. Həmin kursantın anası və qoca babası gəlmişdi. Məlum oldu ki, atası rəhmətə gedib. Mənə söz veriləndə, Nurlanın xəsarət almasına nə qədər aqressiv olsam da, qərar verməyi Nurlana buraxdım. Nurlan isə ayağa qalxıb təmkinlə "Məni anam atasız tək böyüdüb. Bunun necə çətin olduğunu bilirəm. Mən onu anasına bağışlayıram" dedi. Mən Nurlanın həmin kursantla sonrakı münasibətini bilmədim. Lakin ailə də, kursant da sonralar mənimlə çox mehriban əlaqə saxlayırdılar.

Hər şənbə valideynlər gedib uşaqları evə götürür, bazar günü axşam, yaxud 1-ci gün səhər tezdən aparıb təhvil verirdik. Nurlan bazar günü axşam da bizimlə qalmaq istədiyindən, 1-ci gün səhər erkən durub onu liseyə çatdırırdım. Bəzən gecikməmək üçün onu liseyə taksi ilə aparıb qoyur, həmin taksi ilə geri işə qayıdırdım. Nurlan taksidən düşəndən sonra taksinin nömrəsini ya-

dında saxlayır, mən "Çatdım" deyə xəbər verənə qədər o nömrəni beynində dolandırırmış. Mən bunu çox sonralar bildim...

Bir dəfə həftə sonu evə gəlmədi. Soyuqlamışdı, tibb məntəqəsində yatırdı. Növbəti həftə də gəlmədiyini görəndə sevdiyi şirniyyatlardan, meyvələrdən alıb liseyə getdim. Girişdə orta yaşlı bir mayor oturmuşdu. Məni görəndə "İçəri keçməyə icazə yoxdur" dedi. Nə qədər xahiş etdimsə, "İcazə yoxdur" deyib buraxmadı. "Sizə bir yaxşılıq edə bilərəm ki, gətirdiklərinizi ona çatdıraram" dedi. "Heç olmasa səsini eşidə bilərəm?" deyə xahiş edəndə, mayor "Çalışaram" deyib tibb məntəqəsinə zəng elədi. Nurlanı telefona çağırmalarını xahiş elədi. Nurlan telefona gələndə ona mənim gəldiyimi və onunla danışmaq istədiyimi dedi və mayor bir anlıq duruxdu, "yaxşı" deyib dəstəyi qoydu. Bir balaca kağıza imza elədi və mənə verdi "15 dəqiqə üçün Sizə zamin dururam, xahiş edirəm artıq qalmayın" dedi. Şaşırmış halda, kağız parçasını götürüb içəri keçdim. Tibb məntəqəsində Nurlanla görüşdüm. Verilən vaxtı keçmədən giriş qapısında idim. Mayora təşəkkür edib "Nurlan Sizə nə dedi ki, məni buraxdınız?" deyə soruşdum. "Oğlunuzun "bircə dəqiqəliyə anamın üzünü görə bilərəm?" sualı qarşısında dura bilmədim" dedi...

Nurlan 2008-ci ildə liseyi bitirib Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil oldu. Lakin orada sonadək oxumadı. 2010-cu

ildə təhsilini davam etdirmək üçün dövlət xətti ilə Almaniya Federativ Respublikasının Hərbi Məktəbinə göndərildi. Nurlan orta məktəbdə də, liseydə də xarici dil kimi ingilis dili keçmişdi. Alman dili Nurlan üçün tamamilə təzə dil idi. Lakin o, 1 ay ərzində Ali Hərbi Məktəbin təşkil etdiyi kursla yanaşı, fərdi olaraq başqa bir kursa da getməklə, alman dili imtahanını Bakıda və sonra Almaniyada müvəffəqiyyətlə verərək, orada Ali Hərbi məktəbə qəbul olundu.

Almaniyadan yetkin bir hərbçi kimi gəldi. Almaniyada məktəbi "Motoatıcı" ixtisası üzrə birinciliklə bitirmişdi. "Buraxılışın ən yaxşı əcnəbi kursantı" sertifikatı, atıcılıq üzrə, qaçış üzrə qızıl nişanlar... İxtisası "dağ kəşfiyyatı" idi. Ağır təlimlərdən keçmişdi. Alp dağları, keçilməz meşələr, dənizlər...

Xasiyyətnamə Zabit hazırlığı 3, B hissəsi

Sıra №-si	Rütbə	Soyadı	Adı	PK	Xasiyyətnamə
14	Knt	Mustafayev	Nurlan	AZE-0190-10	Kursant Mustafayev öz biliyini və bacarığını kurs ərzində davamlı olaraq artırmışdır. O, alman dili haqqında tam biliklərə malikdir. Adətən sakit və məsafə saxlayan olsa da, döyüş hazırlığında idarəetmə gücü və taktiki anlayışı ilə özünü komandir kimi təsdiq etmişdir. Piyada taqımının komandiri keyfiyyətlərinə tam sahibdir. Kursant Mustafayev Azərbaycanın təqdirəlayiq təmsilçisidir. O kursu ən yaxşı əcnəbi kursant olaraq bitirmişdir.

Xasiyyətnamə verilmisdir: 14.12.12

İmza, rütbə: _____

BEYNƏLXALQ HƏRBİ ƏMƏKDAŞLIQ İDARƏSİNİN RƏİSİNƏ

RAPORT

Bu raportla yazıb Sizə bildirirəm ki, mən kursant Mustafayev Nurlan Hamlet oğlu Azərbaycan Respublikası Müdafiə Nazirinin müvafiq əmrinə əsasən, «Alman dili» və «Piyada qoşunları üzrə Zabit Hazırlığı» kurslarında iştirak məqsədi ilə 07.01.2010-cu il tarixindən 21.12.2012-ci il tarixinə qədər Almaniya Federativ Respublikasında (AFR) ezamiyyətdə oldum.

İlk olaraq Hürt şəhərində yerləşən Federal Dillər Mərkəzində 07.01.2010-cu il tarixindən 26.06.2010-cu il tarixinədək «Alman dili» kursunda iştirak etdim və kursu müvəffəqiyyətlə başa vurdum. Dil kursu, hər biri 3 ay olmaqla 3 mərhələdən ibarət idi. Bu kursda «yazma», «oxuma», «dinləmə», «danışma» və «qrammatika» üzrə imtahanlar verdim. Dərslər təcrübəli dil mütəxəssisləri tərəfindən keçirilirdi.

Dil kursunu bitirdikdən sonra, 26.06.2010-cu il tarixindən 03.12.2010-cu il tarixinə qədər Hammelburg şəhərində yerləşən hərbi hisssənin «Kursant tabor»unda «Ümumi hərbi təhsil» kursunda iştirak etdim və AFR Federal Silahlı Qüvvələrinin silahları ilə yaxından tanış oldum. Tağımlara baş leytenant rütbəli zabitlər, manqalara (qruplara) isə gizir heyəti rəhbərlik edirdilər. Atışlarda «G36», «MG3», «P8», «PzFst-3» (tank əleyhinə qumba-

ra atan), «Grapi» (tapança-partladıcı) silahlarından praktiki atış vərdişlərinə yiyələnmişəm. «Ümumi hərbi təhsil» kursu ərzində 20 km, 30 km və 50 km məsafədə hərbi və taktiki yürüşlərdə iştirak etmişəm. Sonuncu 50 km-lik taktiki yürüşdə birinci nəticə göstərmişəm.

Daha sonra 02.01.2011-ci il tarixindən 26.06.2011-ci il tarixinə qədər Drezden şəhərindəki «Quru qoşunlarının zabit məktəbi»ndə keçirilən kursda iştirak etdim. Bu məktəbdə təhsilin əsas mövzuları «Hərb tarixi», «Siyasi elmlər», «Nizamnamələr», «İnsan hüquqları» və «Taktika» idi. Taktika dərslərində tabor səviyyəsində döyüşün idarə edilməsi keçirilirdi. Bu kursda hücum, müdafiə, ləngitmə, stabilləşdirmə və digər taktiki manevr üzrə məşğələlərdə iştirak etdim.

27.06.2011-ci il tarixindən 02.01.2012-ci il tarixinə qədər Marienberg şəhərində yerləşən hərbi hissədə AFR Federal Silahlı Qüvvələrinin mexanikləşmiş piyada qoşunlarının 371-ci taborunun 3-cü bölüyündə manqa komandiri vəzifəsində təcrübə keçdim. Təcrübə keçdiyim müddət ərzində komandiri olduğum manqanı şəxsi heyətinə silah və sursatlardan, sıra hazırlığından, atışdan, idman və taktiki hazırlıqdan dərslər keçməklə mənə həvalə edilmiş vəzifələri layiqincə yerinə yetirə bildim.

02.01.2012-ci il tarixindən 21.12.2012-ci il tarixinə qədər Hammelburg şəhərindəki «Piyada məktəbi»ndə təhsilimi davam etdirdim. Bu vaxt ərzində bir çox kurslarda – manqa komandirinə hazırlıq, tağım komandirinə hazırlıq (1-ci hissə), tağım komandirinə hazırlıq (2-ci hissə), dağlıq ərazidə döyüş, atəşi idarəetmə kurslarında iştirak etdim. Tağım komandirinə hazırlıq (1-ci hissə) kursunda 3 həftə müddətində Fransanın Season şəhərində Fransa Silahlı Qüvvələrinin kursantları ilə birgə təlimlərdə iştirak etdim. İştirak etdiyim kurslarda mənim üçün yeni olan çoxlu hərbi biliklərə yiyələndim. Təhsil ərzində NATO ölkələrinin taktiki təlim təcrübəsinə uyğun olaraq yaşayış məntəqələrində, bina və tikililər arasında şərti döyüş təlimlərində, eləcə də meşə döyüşləri təlimlərində, taktiki yürüşlərdə dəfələrlə iştirak etmiş, manqa və tağımların müxtəlif döyüş şəraitlərində idarə olunması vərdişlərinə yiyələnmişəm. Eyni zamanda alman ordusunun ən son texnika və silahları ilə yaxından tanış olmuşam. Bu texnikalara alman rabitə sistemi, piyadanın zirehli maşını («GTK-Boxer), «G22» snayper tüfəngi, «G82» iri çaplı snayper tüfəngi, təkmilləşdirilmiş «G3» silahı, «MP7» yüngül çaplı avtomat-tapançası və «MG4» pulemyotu, «GraMaWa» (avtomatik qumbara atan) aiddir. Tağım komandirinə hazırlıq (2-ci hissə) kursunun sonunda gücləndirilmiş piyada tağımını praktiki hücum əməliyyat növündə idarəetmədən imtahanı müvəffəqiyyətlə verməklə, kursu ən yaxşı əcnəbi kursant olaraq bitirdim. Bu müddət ərzində atışlardan «Qızıl nişan» əldə etmişəm.

AFR-dakı hərbi təhsil müddətimdə bir çox xarici ölkələrdən olan hərbçilər ilə təhsil alırdım. Təhsil müddətimdə bir çox mədəni-kütləvi tədbirlərdə iştirak etmişəm. Olduğum hərbi hissə və birləşmələrdə Azərbaycan Respublikası haqqında

təqdimat vermiş və Azərbaycan həqiqətləri barədə alman hərbi qulluqçularını və digər xarici ölkə nümayəndələrini məlumatlandırmışam.

21.12.2012-ci il tarixində ezamiyyətim başa çatmış və mən Azərbaycana qayıtmışam. Ezamiyyətdə olduğum müddət ərzində heç bir hadisə baş verməmişdir.

Əlavə: Şəhadətnamənin surəti və tərcüməsi – 2 (iki) vərəqdə.





2013-cü ildə Xidmətini davam etdirmək üçün Silahlı Qüvvələrin Təlim-Tədris Mərkəzinin "Zabit ixtisası" kursuna, kursu bitirdikdən sonra isə xidmətini davam etdirmək üçün Daşkəsənə "N" saylı hərbi hissəyə göndərildi. 2014-cü il iyul ayının 25-dən 2016-cı il ilin dekabr ayının 3-dək Murovdağda müxtəlif hərbi hissələrdə motoatıcı tağım komandiri vəzifəsində xidmət etdi. Xidməti Şəhid generalımız Polad Həşimovun komandanlığı altında keçdi. Polad Həşimovun yetirməsi idi, onun kimi igid, vətənpərvər, əsgərini sevən... Məzuniyyətə gəlib qayıdanda hər şeyi 17 ədəd alırdı, 17 isti əlcək, 17 isti corab, 17 isti papaq... "Bu qədəri neynirsən?" sualıma, "Ana dağın başında mən isti geyinim, əsgərim üşüsün?" cavabını alırdım. Bu cavabı eşidəndə nə qədər qürur duyurdum... Sonralar Polad Həşimovun anası Səmayə xanımın müsahibəsində də generalın eyni hərəkətini və cavabını eşitdim. Hansı əsgərinin səhhətində nə problemi varsa, mənə onun dərmanını aldırardı. Həmişə xahiş edirdim ki, əsgərlərə bir az şirniyyat qoyum apar. Deyirdi orda daha vacib şeylərə ethiyac var - yanacaq, dərman. Həmişə paltarlarının arasına gizlincə əsgərlər üçün şirniyyat qoyardım. Dağın başında əşyalarını töküb şirniyyatı görəndə mənə "Bir dənəsən", "Səndən yoxdur", "Nə yaxşı mənim Anamsan" yazardı...

2014-2017-ci illərdə "N" saylı hərbi hissədə bölük komandiri olmuş mayor Nicat Əmirəliyev:

Nurlanla ilk dəfə 2014-cü ildə Murov yüksəkliyində tanış olduq. Komandirlik etdiyim bölüyə tağım komandiri təyin olundu. Almaniyada hərbi təhsil almış bir gənc zabit kimi Nurlanla söhbət etmək həm zabit-gizir heyətinə, həm də əsgər-çavuş heyətinə çox maraqlı gəldi. Döyüş postuna gələn hər yeni hərbçi bizlərdən nə isə öyrənirdisə, biz Nurlandan çox şeylər öyrəndik. Həm davranışı, həm savadı, biliyi ilə hər birimiz üçün bir örnək, bir dərslik oldu. Hərəkətləri ilə, verdiyi qərarlarla ilk gündən o qədər diqqətimi çəkdi ki, Onunla dostlaşdıq. Nurlanla 6 il dostluq etdik. 6 il çox zaman deyilsə də, Nurlanla çox şeylər yaşadıq. 8 il Murovda ön xətdə xidmət etmişəm. Nurlanla olduğum illərdə daha ürəkli xidmət aparmışam. Yaşca Ondan böyük olsam da, o mənə həyat dərsi verirdi, varlığıyla, fikirləriylə daim yanımda olurdu.

Onunla son dəfə 2020-ci ildə Bakıda görüşdük. Həmin vaxt Nurlan artıq Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edirdi. Nə biləydim ki, bu son görüşümüzdür... Həm pandemiya, həm də müharibəyə hazırlıq təlimləri səbəbindən bir-birimizlə əlaqə saxlaya bilmədik. Nurlanın Şəhid xəbərini eşidəndə çox üzüldüm. Çox təəssüf ki, Nurlandan geriyə ancaq xatirələr qaldı, tez-tez düşüncələrimdə vərəqlədiyim xatirələr... Mən

Nurlanla qürur duyuram. Nə xoş ki, Onu tanıdım, nə xoş ki, Onunla dost oldum. Varlığı ilə hər kəsə nümunə olan Nurlan, yoxluğu ilə də nümunə oldu. Bu şərəfli yolda birgə addımladıq. Ona Şəhidlik, mənə Qazilik nəsib oldu. Çalışacağam ki, yaşayaraq Səni düşüncələrimdə, fikirlərimdə, sözlərimdə yaşadım, Nurlan. Bu dünyada dostluğumuz yarımçıq qaldı, o dünyada davam etdirərik, İnşallah...



***

Deyildiyinə görə təlim vaxtları çox ciddi imiş. Hansısa əsgərinin "tapşırılmağını" heç xoşlamazdı. Bir dəfə qardaşımın xahişi ilə zəng edib bir əsgərini "tapşırdım". Telefonda bir anlıq susdu. Sonra isə təmkinlə, sakit-sakit "Ana, bilirsən ki, sənin sözün mənim üçün qanundur. Amma gəl, sən özün fikirləş, mənim 17 əsgərim var. Mən onların 16-na deyim ki, "işləyin", "sürünün" və s., o bir nəfərə deyim "gəl, sən otur mənim yanımda, sən mənim dayımın qohumusan". Səncə mən bunu edə bilərəm? Sən dayıya de ki, narahat olmasın. Mən əsgərlərimin hamısını qoruyuram, hamısından muğayatam" dedi.

Uşaqlıq dostu Həsən İsgəndərov:

Biz Nurlanla bir məhlədə, birlikdə böyümüşdük. Nurlan uşaqlıqdan çox ağıllı və təmkinli oğlan idi. Atam həmişə "Nurlanla və Fuadla otur-dur" deyə tapşırardı. Çox ədalətli, dürüst idi. Nurlan hərbini seçdi. Amma əlaqəmiz heç kəsilmədi. Onu həmişə səbirsizliklə gözləyərdik. Həmişə xidmətindən həvəslə danışardı. Vətənə, xalqa bağlı vətənpərvər bir hərbçi idi. Əsgərlərini çox sevər, onları qoruyardı. Hərbi hissədə olanda zəngləşəndə, "Nə lazımdır, nə göndərək sənə?" soruşanda, həmişə nə isə istəyirdisə, hökmən əsgərlərini də nəzərə alırdı- hər şeydən 17 ədəd... yaxud yeməli bir şeylər göndərirdiksə, nəzərə alırdıq ki, 17 nəfər üçün olmalıdır.

2015-ci ildə Daşkəsəndə N saylı hərbi hissədə əsgəri olmuş Mehdiyev Mahir:

Nurlan kimi komandirdən, Nurlan kimi ürəkli oğuldan dünyaya tək-tək gəlir. Nurlanda əsl kişi qeyrəti vardı. Mən onu döyüşdə də görmüşəm. O ilk olaraq əsgərini, zabitini qoruyurdu. Təlim zamanı çox sərt idi. Onun üçün qanun – qanun idi. Həm də Nurlan üçün əsgərinin fərqi yox idi, bu tanışdır, qohumdur - belə şey yox idi... Mən onunla bir məhlədə böyümüşdüm. Bir gün bölükdə "ÇP" olmuşdu. Cəza olaraq "Döyüş!" komandası verdi. Yağışlı bir gün olduğundan hər tərəf palçıq idi, palçıqda sürünərək döyüşməliydik. Yaxınlaşıb "Nurlan biz məhlə uşağıyıq, axı" dedim. Sərt şəkildə komandanı təkrar elədi. Nurlan üçün bütün əsgərlər eyni idi...

2016-cı ildə Gədəbəydə N saylı hərbi hissədə əsgəri olmuş İbrahimli Amil:

Hərbi xidmətdə olduğum zaman, birdən Nurlanı gördüm. Tez yaxınlaşıb "Nurlan, mən Alatavadan, məhlədən Həsənin xalası oğluyam" dedim. Diqqətlə və sərt baxışlarla üzümə baxıb, heç gözləmədiyim "Hərbi hissədə xalaoğlu olmur. Burda mən Həsən tanımıram" deyə cavab verdi. Sonradan bildim ki, Həsənə zəng edib "Xalan oğlu burda yanımdadı. Narahat olmayın, gözüm üstündədir" deyibmiş...

***

2016-ci ilin Aprel döyüşlərində çox qızğın döyüşlərdən sonra əsgərinin biri yüngül yara almışdı. Bundan o qədər narahat imiş ki... Əsgərlərinin dediyinə görə xidməti boyu hər hansı bir tapşırığa tək, çox zəruri hallarda isə giziri ilə gedərmiş, "Nə isə olacaqsa mənə olsun" deyərmiş. Murovda tez-tez qarşı tərəf atəşkəsi pozub atmağa başlayanda, əsgərləri sığınacağa yığıb, gizirlə özü düşməni susdurarmış.

Murovda düşmənlə üz-üzə xidmətini başa vurduqdan sonra deyirdi: "Mən o qədər sevinirəm ki, xidmətim boyu bütün əsgərlərimi anasının üstünə sağ-salamat qaytardım".

Amma özün ananın üstünə salamat qayıtmadın Nurlan...

Bir dəfə Şəhid olmuş bir döyüş yoldaşını valideynlərinə aparmaq tapşırığı alır. Nə qədər xahiş edirsə, tapşırıqdan boyun qaçıra bilmir. Şəhidi təhvil verib gələndən sonra uzun müddət özünə gələ bilmirmiş. "Ən çətin hərbi əməliyyata getməyə hazıram, amma ailəyə Şəhid aparmağa yox" deyirdi...

Daşkəsəndə, Murovdağda xidməti zamanı, komandiri Şəhid generalımız Polad Həşimov haqqında ağızdolusu danışırdı. Polad Həşimovun Şəhadəti Nurlana çox ağır təsir etmişdi. Mən ondan "Nurlan bu general haqqında bu qədər yaxşı danışırlar, döğurdan yaxşı adam idi?" deyə soruşanda "Hələ az danışırlar" dedi. Dedi ki, "Əgər Polad Həşimov aşağıda (Daş-

kəsəndə-hərbi hissədə) olmasaydı, biz yuxarıda (Murovdağda) elə rahat ola bilməzdik. O ilk olaraq yuxarı mövqelərdə olan bizi, bizim təhcizatımızı, yeməyimizi, yanacağımızı, dərmanımızı fikirləşirdi". Polad Həşimov da yuxarı mövqelərə yoxlamalara gələn zaman Nurlandan həmişə razı qalırmış. Qəhrəman generalın qəhrəman yetirməsi idi Nurlan...



***

Xüsusi Təyinatlı Qüvvələrə daxil olmaq çoxdankı arzusu idi. Almaniyadan gələndə ilk seçim turuna qatılmaq istədi. Lakin səhhətində üzə çıxan bir anlaşılmazlıq imkan vermədi. Hərbi qospitala gedib, səhhətində heç bir problemin olmamasını aydınlaşdırana və "Desant xidmətinə yararlıdır" rəyini alana qədər isə gecikdi. Artıq kurslar başlamışdı. 2016-cı ildə xidmət yeri Murovdan Gədəbəyə dəyişdirildi. Bir gün Xüsusi Təyinatlı Qüvvələrin kurslarına seçim üçün gəlirlər. Boy, fiziki hazırlıq tələbləri və yaş 25 yaşadək olmalı imiş. Nurlan gedib otağında oturur. Düşünür ki, artıq 26 yaşı tamam olub. Birdən seçim edənlərdən biri gəlib "Sən Almaniyada oxuyan zabit deyilsən?" soruşur. "Hə, mənəm" deyir. "Niyə bizlərə qoşulmaq istəmirsən?" deyə maraqlanır. "Axı dediniz 25 yaşadək olanlar seçilə bilər, mənim 26 yaşım var" deyir. Seçim edən "Sənə olar, gəl" deyir. Ərizəsini yazan kimi mənə zəng elədi. Sevinclə Xüsusi təyinatlıların kursuna ərizə yazdığını bildirərək, "Ana, o arayışı itirməmisən yəqin ki?" soruşdu. Dedim "Oğlum, üstündən 3 ildən çox vaxt keçib, İnşallah ki, evdə olar". O arayışın Nurlan üçün nə qədər önəmli olduğunu bildiyim üçün arayışı qoruyub saxlamışdım. 03.12.2016-cı il tarixində «Təməl Xüsusi Təyinatlı» kursuna daxil oldu.

26.04.2017-ci il tarixində həmin kursu birinciliklə bitirdi. Buraxılışın möhürünü vurdu.

Sözsüz ki, o kursda nələr baş verdi, hansı sınaqlardan keçdi, nələrə dözdü, mən onu bilmədim. Yalnız sevinirdim ki, balam arzusuna çatdı.

Xidmət üçün Cəlilabada göndərildi. Orada qısa bir müddət ərzində Qərargah rəisinin kəşfiyyat üzrə müavini vəzifəsinə qədər yüksəldi.



2017-2019-cu illərdə "N" saylı hərbi hissədə müavini olmuş baş leytenant Orxan Əkbərov:

Nurlan mənim ilk komandirim oldu. Mən komandirliyi, hərbi xidməti Nurlandan öyrəndim. Mən Nurlanın yanında bir hərbçi kimi yetişdim. Ondan o qədər çox şey öyrəndim ki... Geniş dünyagörüşə, savada malik biri idi. Ciddilik yerində, zarafat yerində... Bir insan hər cəhətdən nə qədər mükəmməl ola bilərsə, Nurlan o qədər mükəm-


məl idi. Mən Onun yanında çox olmağa çalışırdım. Bunu hamıya da tövsiyə edirdim. Hamıya deyirdim ki, gedin Nurlanla oturun, Ondan alicənablığı, davranışı, savadı yığın, daşıyın... Çünki Nurlanla söhbət etdikdə belə, nə isə öyrənirdin. Olduqca təmkinli idi. Heç vaxt səsini qaldırmağı, sözünü qışqıraraq deməyi sevməzdi. Sözünü sakit tərzdə deyər və heç vaxt da Nurlanın bir sözü yerə düşməzdi. Hərbi hissədə hamının hörmətini qazanmışdı. O hamı üçün sanki bir örnək idi. Mənim qardaşım Şəhid Əmrah Əkbərov da Nurlanın yetirməsi idi. Qəhrəman komandirin, Qəhrəman yetirməsi... Hər ikisi daim mənim qəlbimdədir, hər ikisi ilə qürur duyuram...

***

Nurlan alman, ingilis, rus və türk dillərini səlist bildiyindən, tez-tez xarici ölkələrdə keçirilən təlimlərə göndərilirdi.

2018-ci ildə Türkiyənin İzmir şəhərində 53 ölkənin Xüsusi təyinatlı qüvvələrinin qatıldığı "EFES-2018" təlimində iştirak etdi. Həmin təlim-yarışda Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin hərbçiləri 1-ci yerə layiq görülmüşdü. Nurlan təlim-yarışda fəal iştirakına görə sertifikat və Azərbaycan Respublikasının Müdafiə Naziri general-polkovnik Zakir Həsənov tərəfindən xüsusi hədiyyə ilə təltif olunmuşdu.






Ruminiyada, Türkiyədə, Gürcüstanda keçirilən "Dağ xizəkçiliyi", xizək sürmə və qarlı əraziləri ötüb keçmək, axtarış-xilasetmə və təxliyyə tədbirlərinin təşkili, qarlı ərazidə sığınacağın qurulması və gecələmək üzrə təlimlərində iştirak etdi, təlimləri birinciliklə bitirdi, sertifikatlarla təltif olundu.





Nurlan mülki həyatında çox pozitiv idi. Sanki 2 Nurlan vardı: Həddən artıq ciddi hərbçi Nurlan Mustafayev və danışıb-gülməyi, zarafatları sevən mülki Nurlan. Formada olanda duruşu, baxışı, yerişi də başqa olurdu. Forması həmişə təmiz, səliqəli olardı. Hərbi formada olanda yolüstü atmaq üçün zibili ona verə bilməzdik.



Formada küçədə dayanmağı, hətta, məcburiyyətdən də olsa qonaq getməyi sevməzdi. Mən Yasamal rayonu üzrə seçki məntəqəsinin üzvüyəm. Bir gün Nurlan işi ilə əlaqədar olaraq kompüter lazım olduğundan, Ekologiya və Təbii sər-

vətlər Nazirliyində yerləşən seçki məntəqəmizə yanıma gəldi. Formada idi. İşini yekunlaşdırıb getdikdən sonra, seçki məntəqəsinin katibinin sözlərini heç unuda bilmirəm: "Rahilə xanım, oğlunuzla görüşəndə içimdə bir qürur duydum. Maşallah, Allah qorusun, ona baxanda sanki Ordumuzun zabitlərinə və gücünə inandım".



Hərbi paltarlarına çox diqqətli olmasına baxmayaraq, evdə olduğu zaman çox da səliqəli deyildi. "Hərbçisən, bu nə səliqəsizlikdir" deyəndə, "Mülkü həyatın dadını çıxarıram" deyə gülüb keçərdi. Almaniyadan qayıtdıqdan sonra Fuadla yanaşı çarpayılarda yatırdılar. İlk vaxtlar hər səhər Nurlanın yatağı səliqəli, paltarları yerində, Fuadda isə hər şey qarışıq olurdu. Bir neçə dəfə Fuada Nurlanın səliqəsini göstərib, Ondan

örnək götürməyi tövsiyə etdim. Lakin bir qədər zaman keçdikdən sonra əksinə oldu, Nurlan Fuaddan örnək götürdü. Bu gün düşünürəm ki, nə yaxşı ki səliqəsiz idi, nə yaxşı ki az da olsa Onun əziyyətini çəkmişəm, qayğısına qalmışam...

***

Vətənini, xalqını, millətini, bir sözlə Azərbaycana aid nə vardısa hər şeyi çox sevirdi. Almaniyada təhsil aldığı illərdə və sonradan Xüsusi Təyinatlı Qüvvələrdə xidməti zamanı dünyanın bir çox ölkələrində olmuşdu. Getdiyi yerdən qayıdanda "Oralar necə idi?" sualıma həmişə "Ən gözəl yer Azərbaycandır, ən gözəl millət azərbaycanlılardır" deyərdi.

Qaşqabaqlı, dinməz insanlardan xoşu gəlmirdi. O məzuniyyətə gələndə evdə ona görə xırda söz-söhbəti unudur, mehriban, şən bir abu-hava yaradırdıq. Onsuz da bunu biz etməsəydik, o özü edəcəkdi. Həyatı, insanları sevirdi. Həyatdakı ən xırda bir gözəlliyi görüb ondan zövq almağı bacaran biri idi. Zarafat eləməyi çox xoşlayırdı. Dolğun zarafatı qəbul etməyi bacaran idi. Ürəyi həyat eşqi ilə dolu idi. Hərbçi həyatı yaşadığından adi bir həyati hərəkət də ona zövq verirdi. Kiçik qardaşına "Sən bilmirsən necə gözəl həyat yaşayırsan. Ailən var, evə gələndə qızın qucağına atılır, isti xörəyin gəlir süfrəyə, paltarını yuyub ütüləyən var..." deyirdi.

Çox qəribə idi, qaranlıq otaqda yatmaq istəmirdi. Yatdığı otağın işıqlı olmasını istəyərdi.

"Gözümü açanda ətraf qaranlıq olmasın, dərhal harda olduğumu bilim" deyərdi. Əvvəllər bunu zarafata salar, "Bu boyda İgid, qaranlıqda yatmaqdan qorxursan" deyərdim. Sonradan bunun Nurlanın Murovda xidməti ərəfəsində və psixoloji olaraq Onun vəzifə məsuliyyəti ilə əlaqədar yarandığını hiss etdim.



Ailə həyatı qurmaq istəyirdi. Lakin nədənsə bunu hərbçi həyatı ilə uzlaşdıra bilmirdi. Yaxud da qismətinə "Sən hardasansa, mən də orda olaram" deyən biri çıxmadı. Ona görə də işini Giləzi Təlim Tədris Mərkəzinə dəyişənə qədər evlənə bilmədi.

Toy ərəfəsi çox gərgin idi. Nəyinsə yolunda getməyəcəyindən çox narahat idi. Sanki hiss edirmiş... Toy günü təyin olunandan sonra Gürcüstana təlimlərə göndərildi. Toyu təyin etdiyimiz gün orada olacaqdı. Toy gününü dəyişməli olduq. Təlim bitdikdən sonra da bir həyəcan yaşadıq. COVİD-19 Pandemiyası səbəbindən Gürcüstanla sərhədlər bağlandı. Toy gününə sayılı günlər qalırdı, narahatçılıq içində idik. Nurlan isə içində bizdən daha çox keçirdiyi həyəcana baxmayaraq, "Narahat olmayın, hər şey yaxşı olacaq" deyə təmkinlə bizi sakitləşdirirdi. Pandemiya ilə bağlı toy mərasimlərinin qadağan olunacağı barədə fikirlər gəzirdi. Böyük gərginliklərdən sonra mart ayının 8-i Nurlanın toyu oldu. Həmin gün 2020-ci ilin son toyları idi. Növbəti həftədən toy, yas mərasimləri, ümumiyyətlə yığıncaqlar, tədbirlər qadağan olundu.

Toy günü də çox gərgin idi. Ümumiyyətlə, onun işləri həmişə əngəllənirdi. Həmişə "Bir işim tez, maneəsiz alınsa, təəccüblənərəm" deyərdi. Şadlıq sarayına girmək vaxtıdır. Nikah məmuru tıxacda qalıb, gecikir. Axırda qərara aldıq ki, bəy-gəlin zala girsin, toy başlasın, nikah məmuru nə vaxt gələr nikah bağlanar. Elə də oldu...



***

Övladı olacağını biləndə çox xöşbəxt görünürdü. Müharibə başlamazdan bir neçə gün əvvəl oğlu olacağını öyrəndi. Həmin gün onu son dəfə görürmüşük...

Sentyabr ayının 23-ü idi. Qardaşının yeni doğulmuş oğlunun xəstəxana çıxışı idi. Müharibə barədə bilməsəm də, təlimlərdə olduğunu, işlərinin çox olduğunu bilirdim. Ona görə də gələcəyini düşünmürdüm. Günay gəlib "Nurlan dedi məni də gözləyin, gələcək", deyəndə içim sızladı. Ən gərgin anında belə, yanımızda olmağı özünə borc bildi – deyə düşündüm. Körpəni-Əhmədi çıxardıq, evə gəldik, tortunu kəsdik. Tort çox xoşuna gəldi, təkrar istədi, yedi. O tort bizim ailənin ömürlük tortudur.

Bizdən gedəndən sonra Günayla həkimə gedib oğlu olacağını öyrənib. Həmin axşam öz evindən görüntülü zəng elədi, şad xəbəri bizə çatdırdı. Əhmədi görmək istədi. Telefonu körpəyə tərəf apardım. Gülə-gülə "Ona de gözlərini açsın" dedi. Möhkəmcə yatan 3 günlük körpə bunu eşidirmiş kimi bir anlığa gözlərini açıb telefona baxdı və təzədən yatdı. Həmin anda nə körpə bilmirdi ki, əmisini ilk və son dəfə görür, nə də biz bilmirdik Nurlanı bir də görməyəcəyik...

Bir hərbçi kimi arzusu işğal altında olan torpaqların azad edilməsi, Azərbaycanın bütövlüyü idi.



Almaniyada təhsil aldığı zaman bir gün zəng edəndə dedi ki, burada hər həftə bir əcnəbi kursant öz ölkəsinin, öz Ordusunun təqdimatını edir. Bu həftə mənim növbəmdir, Azərbaycanı təqdim edəcəyəm. Təqdimata çox səylə hazırlaşırdı. Azərbaycan və Azərbaycanın atributları haqqında məlumat topladı. Təqdimat günü, sonrakı gün Nurlandan zəng gəlmədi. Mən onun təqdimatı uğurla edəcəyinə əmin idim. Çünki, Alman dilini mükəmməl bilirdi, danışığı səlist idi. Onun bu şad xəbəri mənimlə bölüşməyini gözləyirdim. Nurlandan xəbər çıxmadıqda, özüm zəng edib "Təqdimat necə oldu, oğlum" soruşanda, əsəbi halda "Ana, heç olmasa ondan

yaxşı idi" dedi. Xeyli təkiddən sonra məlum oldu ki, Nurlan Azərbaycanı, Ordumuzu yüksək səviyyədə təqdim edib. Təqdimat bitdikdən sonra zaldan qeyri millətin nümayəndəsi qalxıb "Sən bayaqdan torpaqlarının 20 faizini işğal altında qoyan ordunu tərifləyirdin?" deyə soruşur. "Ana, yer ayrılsaydı, yerə girərdim, o sualdan"- Nurlanın bu sözləri hələ də qulağımdadır... Nurlan uzun illər o sualın təsirindən çıxa bilmirdi...

O bir hərbçi kimi qalib ölkənin ordusunun zabiti olmaq istəyirdi. Nurlan xaraktercə çox həssas insan idi. Xüsusilə qadına, uşağa qarşı. Hətta qadının, uşağın əziyyət çəkdiyi bir filmə baxıb ağlaya bilərdi.

Xocalı faciəsi onun ən ağrılı nöqtəsi idi. Həmişə bu barədə söz düşəndə ürəkağrısı ilə deyirdi ki, "Xocalı hadisələri alnımızın qara ləkəsidir!".

Bəzən düşünürəm ki, Nurlan bu müharibədə qəlbinin dərinliyində boğub saxladığı qisası aldı.

Lakin bir mülki şəxs kimi arzuları yarım qaldı. Son gedişində ana bətnində olan körpəsinə "Mən qayıdınca böyü" deyə tapşırmışdı. Körpə böyüdü, doğuldu. Amma Nurlan qayıtmadı. Körpənin adını gənc yaşlarında dünyasını dəyişən atasının adını qoymağı qərara almışdı. Lakin vəziyyət elə gətirdi ki, öz adını qoyduq. Aramızdan bir Nurlan Mustafayev getdi, başqa Nurlan Mustafayev gəldi...







Nurlan mənə təkcə oğul deyildi. O, Fuada ata əvəzi idi. Nurlan mənim sirdaşım, dayağım idi. Ana üçün övladların heç bir fərqi olmur. Lakin erkən yaşlarından məndən uzaqlarda olduğundan, doyunca bir yerdə ola bilmədiyimizdən mənim Nurlana və Onun mənə sevgimiz bir başqa

cür idi. Ad günüm, 8 Mart və ya başqa bayramlarda gecə saat 12-yə sayılı dəqiqələr qalmış mənə zəng edib təbrik edirdi ki, ondan qabaq məni heç kəs təbrik etməmiş olsun. Məni elə sözlərlə təbrik edirdi ki, hökmən kövrəlib ağlayırdım. Buna hamı öyrəşmişdi. O zəng edən kimi Fuad mənə zarafatla "hazır ol, ağlamağa"- deyib dəsmal uzadardı. "Nə yaxşı ki, mənim anamsan!" "Sənin lə qürur duyuram!", "Fəxr edirəm ki, sənin oğlunam!" bu sözlər hər zaman dilindəydi. Hər dəfə də sonda "Ana, yenə səni hədiyyəsiz təbrik etdim" deyərdi. "Siz mənim ən böyük hədiyyələrimsiz " deyərdim. Həmişə Fuada deyirdi ki, "Nə edirsən et, necə yaşayırsan yaşa, bircə elə et ki, ana ağlamasın". İndi yanımda olsa deyərdim ki, "Bəs sən niyə məni ömürlük ağlar qoydun, Nurlan"???

***

Heç vaxt Şəhidlikdən söz açmazdı. O Vətən üçün ölmək deyil, Vətən üçün vuruşmaq niyyətindəydi. Amma müharibə vaxtı bir dəfə döyüş yoldaşına "Təsəvvür edə bilmirəm, mənə nə isə olsa, anam buna necə dözər" deyibmiş... Heç mən də bir dəfə də olsun, Nurlanın Şəhid ola biləcəyini ağlıma gətirməmişdim. Elə bilirdim Nurlana güllə batmaz. Düşünürdüm ki, Nurlan bilir neçə vuruşmaq, necə qorunmaq lazımdır. Bu gün də o fikirdəyəm ki, Nurlan minaya düşməsəydi, ona güllə batmazdı. Bəzən çox qəribə bir təəssüf keçir ürəyimdən: Nurlan Şuşa döyüşlərini görsəydi... Şuşa döyüşü Nurlanın döyüşü idi...



Nurlan bütün meyvələri, qarpızı çox sevərdi. Çox meyvə yeyərdi. Narı isə dənələməyi sevməzdi. Narı həmişə mən dənələyib kasaya yığır və qaşıq verərdim. "Bir dənəsən!" deyib ləzzətlə yeyərdi.



Meyvədən söz düşmüşkən... Almaniyada yemək zamanı həmişə meyvə olurmuş. Nurlan da meyvəni çox sevdiyindən həmişə meyvə götürürmüş. Bir neçə dəfə də armud götürür, lakin armudlar yetişmədiyindən, hər dəfə onları gətirib otaqda şkafın üztünə düzürmüş. Bir gecə də şkafı acdığı bir anda, armudlar gözünə sataşır və götürüb onları doğrayır. Stola qoyub otaq yoldaşlarına "Gəlin, qonaq olun" deyir. (Haşiyə üçün deyim ki, həmin 3 nəfərin hansı dövlətin vətəndaşı olduqları dəqiq yadımda deyil. Yalnız daha yaxın olduğu Monteneqrodan bir qara dərili, səhv eləmirəmsə, Con vardı). Otaq yoldaşları təəccüblə Nurlana baxır və deyirlər ki, "Niyə biz yeməliyik ki, axı, armudlar sənindir?". Nurlan uzun-uzadı onlara Azərbaycana, azərbaycanlılara xas olan qonaqpərvərlikdən danışır. Onları başa salır ki, bizim adət-ənnənəmizə görə mənim tək yeməyim nəzakətsizlikdir. Hamı diqqətlə Nurlana qulaq asır. Sonra həvəslə yaxınlaşıb armudları yeyirlər. Nurlan bu hadisənin sonunu həvəslə, gülə-gülə belə yekunlaşdırırdı: "Növbəti günü günorta bir də gördük ki, Con 4 ədəd dönərlə girdi otağa. Bəli, biz Avropaya inteqrasiya edirik. Lakin elə hallar var ki, nəinki Avropa, bütün dünya Azərbaycana inteqrasiya etməlidir."



***

Həyatda sevincin ən böyüyü övlad sevinci, acının ən böyüyü övlad acısıdır. Hətta ömür boyu valideyninə əziyyət verən bir övladın da itkisi valideyn üçün, xüsusilə də Ana üçün (Atalardan üzr istəyirəm!) ölümdən betərdir. Mən həyat yoldaşımı erkən itirmişdim. Yoldaşım 39 yaşında xəstəlikdən vəfat etmişdi. Qaynanamın uzun illər övladı olmamış, sonradan 3 qızı və 1 oğlu-mənim yoldaşım doğulmuşdu. O, oğlunu nəzərə çarpacaq dərəcədə qızlarından çox sevirdi. Bunu hamı bilirdi, ona görə də yoldaşımın hüzürünə gələn qohumlar deyirdilər ki, "Biz elə düşünürdük ki, gələndə iki meyit görəcəyik..." Amma ölüm insanın əlində deyil ki... Qaynanam oğlundan sonra 17 il yaşadı. Buna yaşamaq demək olardısa. Həddən artıq çox ağlayırdı. Həmişə sakitləşdirməyə çalışırdım. Mən hər dəfə qaynanama deyirdim ki, "Evdə 2 oğlan uşağı böyüyür, hər an onlara yetimliklərini, atasızlıqlarını xatırlatmağa nə ehtiyac var ki? Onsuz da onlar bütün ömürləri boyu bunu həyatda hiss edəcəklər".

Nurlan Şəhid olduqdan sonra mən ilk fürsətdə Şamaxıya gedib qaynanamın məzarını ziyarət edib, ondan üzr istədim. Üzr istədim ki, "Mama, bağışla sənə "az ağla" deyirdim". Az ağlamaq olmurmuş, övlad dərdi tam başqaymış...

Dilimiz nə qədər zəngin olsa da, övlad acısını ifadə etmək üçün leksikonumuzdakı sözlər acizdir. Övlad acısı nəinki keçmir, heç azalmır da. "Zaman bütün dərdlərin dərmanıdır" deyirlər. Bu ifadə övlad dərdinə aid deyil. Mənim üçün heç bir şey təsəlli deyil. Şəhid Anası olmağın da acısı eynidir. Sadəcə fərq ondadır ki, Şəhid Anası olaraq acını qürurla, fəxrlə çəkirsən, burda acı fəxarətlə, qürurla qarışır...

Bir Şəhid anası kimi bircə təsəllim odur ki, Nurlan Vətən yolunda, torpaq yolunda canını fəda etdi. Bu Onun bir hərbçi kimi amalı idi, müqəddəs amalı... Qürurluyam ki, Oğlumla yalnız mən yox, bütün Azərbaycan xalqı fəxr edir, Onu hamı ehtiramla yad edir. Özümü sakitləşdirmək üçün düşünürəm ki, Nurlana ancaq belə şərəfli, belə şərafətli ölüm yaraşardı... Lakin bu ancaq ani sakitləşdiricidir. Övlad acısı heç zaman keçmir və azalmır...

Hər birimiz bu dünyada sanki qonağıq, gəlib-gedən qonaq... Hər kəsin bu dünyada ömür payı var. İnsan var ki, uzun ömür yaşayır, lakin həyatdan gedəndə heç bir iz qoymur. Gərək həyatda elə yaşayasan ki, elə "qonaq" olasan ki, arxanca iz buraxasan, həyatdan köçdükdən sonra arzu olunasan. Nurlan bu dünyada kişi kimi

yaşadı, kişi kimi də getdi, şanıyla, şöhrətiylə... Nurlan "Yolun düşsə bu dünyaya bir də gəl" deyiləsi kimi yaşadı... Nurlanıma ancaq belə ölüm yaraşardı, ölümlərin ən gözəli, ən alisi - ŞƏHİDLİK!!!

İş və döyüş yoldaşı Bəhrəm Əhmədov:

Nurlan bütün xidmətim boyu tanıdığım ən mükəmməl insan, ən mükəmməl komandir idi. Onunla hər mövzuda danışmaq olurdu. Hərtərəfli, savadlı, gözəl həmsöhbət idi. Vətənini, millətini çox sevirdi. Mübariz ruhlu, igid və xeyirxah biri idi. Bir Azərbaycan kişisinin, Azərbaycan ərəninin obrazı yaradılmalı olsaydı, o Nurlanın obrazı olardı. Əsil Azərbaycan kişisi idi. Nurlan 30 illik həyatında Vətən üçün, cəmiyyət üçün, çoxlarının 70-80 ildə edə bilmədiklərini etdi. Nurlan kimi komandirlər çox az-az yetişir. Onda komandirə məxsus bütün xüsusiyyətlər cəmləşmişdi. Onun komandirliyi altında hər hansı bir döyüşə gözüyumulu gedə bilərdin. Çünki əmin idin ki, bütün qərarları düzgün qəbul edib.

Çox təəssüf ki, Nurlanın Şəhadəti mənim yanımda oldu...

***

Nurlan sözün əsil mənasında mükəmməl hərbçi idi. O həm fiziki cəhətdən, həm hərbi biliklər baxımından çox bitkin bir hərbi qulluqçu idi. Nurlanın ata tərəfi əslən Qərbi Azərbaycandan idilər. 1988-ci ildə öz ata-baba yurdlarından

qovulmuşdular. Nurlan uşaqlıqdan nənə və babasından mənfur qonşuların azğınlıqlarından, bizlərə qarşı olan əsassız iddialarından, bütün türk dünyasına olan nifrətlərindən çox eşitmişdi. Ona görə də uşaqlıqdan onda ermənilərə qarşı nifrət yaranmışdı. Bəlkə də sonradan hərb yolunu seçməsində bu faktın da rolu olmuşdu.

İşini çox sevərdi. Hərbidən, döyüşdən, silahlardan danışanda, sanki qarşımda bir başqa Nurlan görürdüm. Döyüş kitablarını çox sevər, həmişə vətənpərvər ruhlu mahnılar dinləyər, döyüş filmlərini izləyərdi. Döyüş taktikasını mükəmməl bilirmiş, sərrast atıcılığı vardı. Almaniyadan atıcılıq üzrə qızıl nişanla qayıtmışdı. Hərbi biliyini daim artırmağa çalışardı. Telefonda, sosial şəbəkələrdə çox olmazdı. Nə vaxt telefona qapandığını görürdümsə, bilirdim ki, hərbi ilə bağlı nə isə tapıb...

Hələ Ali hərbi məktəbdə oxuduğu vaxt idi. Bir dəfə haradansa bir hərbi kitab gətirmişdi (adı yadımda deyil). Ayrılmadan oxuyurdu. Soruşdum ki, "nə yaman qapanmısan bu kitaba, nə kitabdır ki?" Dedi "çox qiymətli kitabdır, heyf ki, sabah qaytarmalıyam". Səhər tezdən işə gələndə kitabı götürdüm. İşə çatıb tələsik bütün kitabın surətini çıxartdım. Vərəqləri səliqə ilə yığıb kitab şəklinə saldım, tikdim. Hazır olan kimi Nurlana zəng elədim ki, "kitabı axtarma, məndədir, gedəndə mənə işə dəy, götür". Nurlan üçün xoş bir sürpriz elədiyimi düşünüb, sevinirdim. Nurlan gəldi, hazırladığım kitabı göstərdim. Əlinə

alıb o tərəf, bu tərəf vərəqlədi və "bir dənəsən" deyib məni qucaqladı. O gedəndən sonra hey fikirləşirdim ki, Onun sifətində gözlədiyim sevinci görmədim. Bu məsələ içimdə qalmışdı. Xeyli müddət keçəndən sonra, bir gün həmin məsələni xatırlayaraq, səbəbini soruşdum. Əvvəl demək istəmədi. İsrar etdim. Gülərək, "O kitab rəngli olmalı idi. Sənin çıxartdığın surətdə mən saatlarla təyin etməyə çalışıram ki, düşmən mövqeyi hansıdı, öz mövqelərimiz hansıdı (mövqelər rənglərlə ayrılırmış). O kitabla döyüşə getsəm, öz mövqelərimizi də dağıda bilərəm. Amma o əziyyətlə ki kitabı düzəltmişdin, bunu sənə demək istəmirdim" dedi. Xeyli gülüşdük...

Qulluq etdiyi Hərbi hissənin Komandiri İlqar Nəzərov:

Çox savadlı, bacarıqlı və məsuliyyətli idi. Onunla işləmək çox asan idi. Ona görə də operativlik üçün, bəzən başqalarının yerinə yetirməli olduğu işləri Nurlana tapşırırdım. Öz işi olmadığını bilsə belə, həmişə hər işi ürəklə görərdi. Bəzən düşünürdim ki, bir gün işlə çox yüklənməsinə etiraz edəcək. Lakin ən yorğun halında belə, bunu görmədim. Həm fiziki, həm texniki, həm də nəzəri cəhətdən əsil hərbçi idi. Mən Onun şəxsində gələcəyin generalını görürdüm.

***

Müharibənin başlanacağı barədə hələ 2020-ci ilin yayından söhbətlər gedirdi. Hərbçi ailə-

si olaraq biz bunu hamıdan əvvəl hiss edirdik. Yayda İsmayıllı meşələrində təlimlərə başlamışdılar. Sanki müharibənin başlamasına tələsirdi. "Murova, Şuşaya qar yağacaq, hücum çətinləşəcək" deyirdi. Bu sözləri o qədər sakit, o qədər əminliklə deyirdi ki... Dedim "Ay oğlum, niyə tələsirsən, təki olmasın bu müharibə". "Qarabağı işğaldamı qoyaq, ana? Biz almasaq, bu qisas övladlarımıza qalacaq" dedi. Bu mövzuda danışmağı sevmirdi.

"Narahat olma, hər şey planlaşdırılıb, biz tam hazırıq, Qələbə bizimdir" - bu onun müharibə barədə son sözləri oldu. Nurlan xəritə çəkməyi, planlaşdırmanı mükəmməl bilirdi. Ona görə o koordinasiya qrupunda idi. Eşitdiyimə görə ağır silah-sursatın Murova daşınmasında atlardan istifadə olunması da, o yerlərin relyefinə yaxından bələd olan Nurlanın təklifi ilə olmuşdu. Müharibə müddətində çox az əlaqə saxlayırdıq. Onun səsini eşidən kimi ağlayır, danışa bilmirdim. Buna görə deyirdim ki, sən qardaşına, yoldaşına zəng elə, bircə mənə desinlər ki, sağ-salamatsan, mənə bəsdir. Nə biləydim ki, səsinə, danışığına möhtac qalacağam...

Sonuncu gün hamımıza zəng elədi. 11.10.2021-ci il saat 13:29-da mənə sonuncu dəfə zəng elədi. Həmişəkindən bir az artıq danışdıq.

Səsində bir qədər yorğunluq hiss olunurdu. Dedim "Oğlum, soruşa da bilmirəm hardasız, neynirsiz?". Dedi "Ana, irəliləyirik". Dedim "Hara irəliləyirsiz, hardasız axı?". Dedi "Hara

lazımdır, ora". Həmişəki kimi yalvardım ki, özündən muğayat ol və bütün müharibə ərəfəsində hər an içimdə gəzdirdiyim ifadəni "Sənə gələn, mənə gəlsin" dedim. Sonra yoldaşına, yaxın dostuna zəng edib. Son olaraq qardaşı ilə danışıb. Zəngindən bir neçə saat sonra Şəhid olması xəbəri gəlib...

Həmin gecə rayona getməyə hazırlaşırdıq. Növbəti gün hamımız Zaqatalaya gedəcək, Fuadın yoldaşını və uşaqlarını orada gəlinin anasıgildə qoyub, bir müddət baxmaq üçün xəstə anamı gətirib qayıtmalıydıq. Fuad axşam növbəsində işdə idi. Biz isə evdə hazırlıqla məşğul idik.

Nurlanın Şəhid xəbərini gətirən döyüş yoldaşları məhləmizə gəlib bizim evi soruşublar. Uşaqlar məni düşünərək, onları evə yaxın buraxmayıb, Fuadı axtarıblar. Fuadın gəlişini sonradan dostları "Sanki göydən təyyarə endi yerə" deyə təsvir edirdilər. Bütün məhəllə ayağa qalxıb. Küçələr süpürülür, təmizlik işləri görülür, bayraqlar asılır... Səhərədək bütün məhəllə yatmır. Mən isə hər şeydən xəbərsiz hazırlıq işlərindəyəm. İşlər bitəndən sonra gec də olsa yatmışam da... Səhər tezdən qalxıb səhər yeməyini hazırlamağa başlamışdım ki, Fuad içəri girdi. Mənim üzümə baxmadan "Ana rayon təxirə salınır, Nurlan yaralanıb" dedi və tələsik bayıra çıxdı. Həmin an keçirdiyim hissləri ifadə edə bilmirəm. Amma inandım. Mən heç vaxt Nurlanın Şəhid olmasını ağlıma gətirməmişdim.

Bir azdan növbə ilə bacılarım gəlməyə başladı. Küçədəki səsləri hiss etməyə başladım. Hamıya yalvarırdım ki, "Düzünü deyin, Nurlan salamatdırmı???". Sözsüz ki, hamı "Hə" deyə məni yayındırırdılar. Axşamüstüyə qədər əllərim göydə "Allahım, qolu olmasın, ayağı olmasın, heç olmasa quru nəfəsi gəlsin" deyə Allaha yalvara qaldım. Mənə deyirlər ki, ambulansla qospitala gətirirlər. Hamıya yalvarıram ki, gedək qarşılayaq. Son ana qədər Şəhid olması fikrini özümə yaxın buraxmadım. Saat təxminən 5-in yarısı mənim telefonuma zəng gəldi. Kiçik bacım cavab verdi. Abşeron rayon Hərbi komissarlığından zəng edib harada basdırılacağı barədə soruşurdular. Yəqin ki, onlar artıq xəbərdar olduğumuzu zənn etmişdilər. Xəbəri eşitdiyim anda "Necə yəni, Nurlan yoxdur??? deyə bağırdığım yadımdadır... O an mənim həyatımın ən ağır anı idi... Sonra bir neçə saat nələr baş verdiyindən xəbərsizəm...

Nəşi növbəti gün gətirdilər. Fuad gedib qaydalara zidd olsa da üzünü açıb baxmağa icazə alıb. Deyirlər ki, Fuad nəşin olduğu maşına tək girmək istədi və orda xeyli qaldı. Yəqin ki, ata, sirdaş, dost əvəzi qardaşı ilə vidalaşırmış... Nəşi gecə evə gətirmək istəməyib. "Onsuz da mən bundan sonra yetim qaldım. Gecəni səhərədən Nurlanın tabutunu anamın qarşısında qoysam, anamı da itirərəm" deyib. Səhər saat təxminən 10-da üçrəngli bayrağa bükülmüş tabut gəldi. Ağla sığmayan bir izdiham vardı. Bütün Alatava nəşi "şamaxinka" adlanan yerdə, Alatavanın

girişində qarşılayıb. Hamı istəyib ki, nəşi çiyinlərdə gətirsinlər. Amma qanun icazə verməd-iyindən küçəmizin döngəsinə qədər maşında gətirilib. Küçəmizə dönən hissədə isə hamı bir nəfər kimi israrla maşının önünə keçib nəşi çiyinlərinə alıb gətirdilər. Sonradan videolarda görürəm ki, mən də çiynimi tabuta vermişəm. Neçə saatlıq dəfn mərasimindən sonra evə qayıdanda ayaqyalın olduğumu gördüm. Çünki, bütün mərasim boyu mən özümdə deyildim... Eyni izdiham Fəxri Xiyabanda da olub. Lakin orda da mən yalnız tabutu görürdüm. Gözüm baxa-baxa balamı dəfn etdilər. İnanın ki, həmin andan mənim ruhum da Nurlanla dəfn olunub, gəzən cismimdir... Əminliklə dediyim bir ifadə var: Hər Şəhidin arxasınca bir Ana da Şəhid olur, ən azından ruhən...





NƏNƏNİN YUXUSU

Mənim anamın ayağı amputasiya olunub. Nurlan Şəhid olan günü mən rayona gedib, anamı bir müddət baxmaq üçün Bakıya gətirəcəkdim. Həmin gecə kənddə anam gecə yarısı yuxudan oyanır. Sürünə-sürünə otaqdan çıxıb, evin pilləkənlərini düşür. Pilləkənlərin altına qoyulmuş əlil arabasına oturur (Bütün bunları həmişə kiminsə köməyi ilə çətinliklə edirmiş). Sonra qaranlıqda araba ilə həyəti gəzir. Sonda yorularaq, üşüyərək bir yerdə dayanıb qalır. Səhər namazına duran qardaşım anamı yerində görməyib axtarır və həyətin başında tapır... Anam özünə gələndən sonra danışır: Yuxuda dedilər ki, Əhməd dayı (qaynatam) dana kəsib, ət satır. Həyətə düşdüm ki, mən də ət alım. Gördüm ki, Əhməd dayı bütöv dananı soyub qoyub qabağına oturub. Qarşıda da Rahilənin evidir, işığı yanır. İşığa tərəf getməyə başladım. Birdən evin işığı söndü. Və mən səmti itirdim, qaranlıqda çaş-baş halda bağı fırlanmağa başladım...

Amma mənim yuxuma heç gəlmir. Çox istərdim, balamı heç olmasa yuxuda görüm. Amma gəlmir yuxuma da. Bir neçə yaxın adamların yuxusuna girib "Anama deyin çox ağlamasın, mənim yerim çox yaxşıdır" deyə məni rahat etmək istəyir...

***

Mən Vətənimi, torpağımı, bayrağımı çox sevirəm. Uzun illərdir ki, iqtidar partiyası olan Yeni Azərbaycan Partiyasının aparıcı üzvlərindənəm. Hələ gənc yaşlarımdan bu günədək ictimai işlərdə çalışıram. Həmişə "Yadın yaxşısı Vətənimin pisinə qurban olsun!" demişəm. Övladlarımı da həmişə bu ruhda böyütdüm. Həmişə Vətəni sevməyi, Vətənin olan hər şeyə hörmətlə yanaşmağı aşıladım. İnsanlarla anlayışla ünsiyyətdə olmağı tapşırdım. Bir sözüm Nurlanın çox xoşuna gələrdi, deyirdim "Qarşındakı sənin kimi düşünmürsə, sənin dediyini demirsə, bu o demək deyil ki, o səhvdir. Ola bilər sən düz demirsən, düz düşünmürsən". Mən övladlarımı dürüst olmağa, kimsənin haqqına girməməyə və eyni zamanda öz haqqlarını kimsəyə yedirtməməyə, mübariz, güclü olmağa öyrətmişəm. Son illərdə bir dəfə Nurlan mənə dedi ki, "Ana sənin bir sözün həmişə mənim həyatda güclü olmağım üçün şüar oldu, "Həyat ac canavar kimi ağzını geniş açıb gözləyir, kim zəifdir onu udacaq"...

Nurlan hərb yolunu seçdi. 14 yaşından yanımda olmadı. Daim əlaqə saxlayardıq. Həmişə sevincimi ilk onunla bölüşmək istəyər, xırda ailə problemlərimizdən onu uzaq tutmaq istəyərdim. Onun məzuniyyətə gəlişi evimizdə bayram olardı. Sevdiyi xörəkləri, şirniyyatları bişirər, şorabaları, mürəbbələri, kompotları Nurlan gələnə saxlayardıq. Fuad hər dəfə zarafatla Nurlana

deyərdi "Sən elə bilirsən, bizim süfrəmiz həmişə belə olur? Sən gələndən-gələnə bayram eliyirik". Hərbi hissədə yediyi yeməkləri evdə də yeməyi xoşlamırdı. Ən çox sevdiyi xörək quru paxla döşəməli plov idi. Hər gəlişinə bişirərdim... Səhər yeməyini xüsusilə sevərdi. Səhər çayının rəngli, çox şirin və qaynar olmasını istərdi. Həmişə deyərdi "Heç vaxt, heç yerdə səhərin şirin çayı sənինki kimi olmur". Çayın qaynar olması üçün, həmin stəkana qaynar su töküb stəkanı, hətta çay qaşığını qızdırardım. Sonra çayı süzüb şirin edərdim. Orta bişmiş soyutma yumurtanı çox sevərdi. Lakin çox təəccüblüdür ki, mən yumurtanı soyduqdan sonra, nədənsə həmişə üstündə kiçicik də olsa yumurta qabığı qalardı. Hətta soyduqdan sonra yumurtanı suyun altına tutsam belə... Həmişə yumurtaya diqqətlə baxar, o kiçicik qabığı elə həvəslə axtarar, tapanda sevincək mənə göstərərdi. Bu hal demək olar ki, onun çox az bizimlə keçirdiyi günlərin hər birində baş verərdi. Hər dəfə də gülə-gülə "Sən hər işi mükəmməl görürsən, bircə yumurta soymağı bacarmırsan" deyərdi. Mən bu gün də soyutma yumurtanı göz yaşı axıtmadan yeyə bilmirəm və mənə elə gəlir ki, bu illər keçsə də belə olacaq...

Konkret olaraq yemədiyi yemək yox idi, sevdiyi ya sevmədiyi xörəklər vardı. Hərbi hiissədə bişirilən xörəklərin evdə bişirilməsini istəməzdi. "Orada yemədiyim xörəkləri bişir" deyərdi...



Adi bir çay istəməsi belə pozitiv ruhda olardı. Mənə ya Fuadın yoldaşına "Mənə tez çay gətir, tezzz, yoxsa general olanda qapıda gözlədəcəm səni" deyərdi... Mən və bacılarım nisbətən kiloluyuq. Bizi birlikdə görəndə həmişə "İncəbelli gözəllər" deyə sataşardı... Amma həmişə arıqlamaq üçün "mücadilə" etdiyimi görəndə "Mən arıq ana istəmirəm, belə daha gözəlsən" deyərdi... Məni qınadığı yeganə hal vardı. Deyərdi "Çox ehtiyatlısan. Bu qədər güclü qadınsan, amma həmişə yeni nəyəsə risk eləməkdən qorxursan". Bəzən etdiklərində yanılsa belə, yenə də öz fikrində qalardı. "Risk eləmək lazımdı, suyu çox üfürə-üfürə içirsən, belə eləmə" deyərdi...

Nurlanı hamı çox sevirdi, həm bibiləri, həm xalaları... Bibiləri sanki Onu həyatdan vaxtsız gedən qardaşlarının yerinə qoymuşdular. Hamı

evə, məzuniyyətə gələndə Onu görmək istəyirdi. Bəzən çox məhdud günlük evə gələn zaman bibilər, xalalar Onu görməyə gələndə, xəcalət çəkər, hamıdan üzr istəyərdi ki, "bağışlayın, gərək mən sizləri görməyə gələrdim, vaxt edə bilmirəm"...



Həmişə gəlişini səbirsizliklə gözləyərdik. Gələndə ilk sualımız "Neçə günlük gəlmisən?" olardı. Həmişə eyni cavabı vardı: "Bilmirəm". Çünki çox az hallar olurdu ki, dediyi qədər yanımızda qala bilsin. Hərbçi həyatı idi, istənilən an geri çağırıla bilirdi. Qəfil çağırışlar hamımızı məyus eləsə də, Nurlan buna çox təmkinlə reaksiya verər, tələsik hazırlaşıb hərbi hissəyə qayıdardı. Hətta gəlib çatıb hərbi paltarlarını yuyub, lakin qurumadan yığıb getdiyi vaxtlar o qədər olmuşdu ki...

Doğum günlərində də bir yerdə ola bilmirdik.

Son doğum günü - 30 yaşında da təlimlərlə bağlı birlikdə ola bilmədik. Amma 29 yaşını birlikdə qeyd etmişdik. Cəlilabaddan tələm-tələsik gəldi, Bayılda "Dərya" balıq evində yemək yedik. Orada tort olmayacağını nəzərə alaraq, tortu özümüzlə götürmüşdük. Sonda ofisiant oğlandan çay gətirməsini xahiş etdik. Müştərinin həddən artıq çox olması səbəbindən, bir qədər gözləməli olacağımızı bildirdi. Mən isə ona "Oğlum hərbçidir, getməlidir. Gözləyə bilmərik. Sən bizə eləcə su gətir, tortu su ilə yeyəcəyik" dedim. Oğlan Nurlana baxdı, getdi və çox qısa vaxtdan əlində podnosda çay ilə gəldi. Yenə Nurlana baxaraq "Mən heç razı olaram ki, hərbçimizin tortu çaysız kəsilsin" dedi. Tortu kəsdik, çayımızı içdik. Sonra tələsik Nurlanı hərbi hissəyə yola saldıq...



Azərbaycan xalqı əsrlərlə təcavüzlərə məruz qalıb. Bizi zaman-zaman soyqırıma, qırğınlara məruz qoyublar, bizi nəinki vaxtilə məskunlaşdığımız Qərbi Azərbaycan torpaqlarından, hətta öz ata-baba yurdlarımızdan didərgin salıblar.

Torpaqlarımızın 20 faizindən çoxu işğal olunub. Bununla yalnız ərazilərimizə deyil, müstəqilliyimizə, suverenliyimizə təcavüz olundu, ləyaqətimizə, namusumuza, ismətimizə toxunuldu. Azərbaycan xalqı 30 ilə yaxın səbrlə münaqişələrin sülh yolu ilə həllini gözlədi. Çünki biz müharibə istəmirdik. İstəmirdik ki, analar gözü yaşlı, ailələr başsız, uşaqlar atasız qalsın.

Lakin bu münaqişənin sülh yolu ilə həll olunmayacağına, düşmənlərimizin və vasitəçilərin ikili standartlı mənfur niyyətinə əmin olduqdan sonra, Ali Baş Komandanımız İlham Əliyevin bir əmri ilə bütün Azərbaycan xalqı ayağa qalxdı, torpaqlarımız uğrunda müharibə başladı. 44 günlük Vətən müharibəsi Zəfərlə başa çatdı. 30 ilin yox, əsirlərin qisası alındı. Azərbaycan işğal altında olan torpaqlarını azad etdi. Bir torpaq uğrunda ki, o qədər Şəhid verilmişdi, bir torpağa ki, o qədər Şəhid qanı axıdılmışdı, o torpaqlar düşmən tapdağında qala bilməzdi. Bununla Azərbaycan tam oldu, bütöv oldu, Qarabağlı oldu. Şərəfimiz, şanımız qayıtdı. "Torpaqlarının 20 faizi işğal altında olan dövlət" ləkəsi alnımızdan silindi. Bu gün qürurluyuq. Bu qüruru Azərbaycana yaşatdığı üçün ömür boyu Müzəffər Ali

Baş Komandanımıza, Şəhidlərimizə, Qazilərimizə və Ordumuza borcluyuq.

Bu böyük Zəfərdə payı olan, Qızıl tarixi-mizdə imzası olan bir Qəhrəmanın anası olmaq olduqca qürurvericidir. Bu gün Bakıda və bəzi rayon məktəblərində 10-larla sinif Nurlan Mustafayevin adını daşıyır.







Oxuduğu S.Poladi adına 159 saylı tam orta məktəbdə asılmış stend.





Nurlan Mustafayev və Nurlan kimi qəhrəmanlar gələcək nəsil üçün igidlik, vətənpərvərlik nümunəsidir. Bu gün evimizin yerləşdiyi, Nurlanın böyüdüyü, qaçıb-qovduğu həmin küçə də Nurlan Mustafayevin adını daşıyır.




***

Nurlanın şəxsi əşyaları Bakıda inşa olunan "Zəfər" muzeyində saxlanılacaq. Şəxsi əşyalarının bir hissəsi isə, Azərbaycan Tarix muzeyində nümayiş olunur.

***

Polkovnik Abdulla Qurbanini müəllifi olduğu "Vətən Müharibəsi Qəhrəmanları" kitabının 1-ci cildində Kapitan Nurlan Mustafayev haqqında yazılıb...





***

Nurlanın və bütün Şəhidlərin xatirəsinin əbədiləşdirilməsi üçün müxtəlif səpgili tədbir-

lər keçirilir. Zaman-zaman gerçəkləşən "Mənim oğlum qəhrəmandır", "Mənim atam qəhrəmandır" layihələri yüzlərlə Şəhid analarını, övladlarını bir araya toplayır. "Şəhidlər vurulanda yox, unudulanda ölərlər" deyirlər. Əminəm ki, xalqımız bu Vətən üçün, millət üçün, istiqlal və istiqbalımız üçün, torpağımız, bayrağımız üçün, müstəqilliyimizin tamlığı üçün, bütövlüyümüz üçün canlarını fəda etmiş Şəhidlərini heç zaman unutmayacaq...


Həmişə Şəhidlərin adının ləyaqətlə xatırlanmasını, əbədiləşdirilməsini istəyirəm. Mən bir Şəhid anası kimi bu günədək daim üzərimdə dövlətimizin qayğı və diqqətini hiss edirəm. Hər zaman insanlardan Şəhid adına hörmət görürəm. Şəhid adı çəkiləndə sanki "sular durulur". Bu məni çox sevindirir. Bu müddət ərzində o qədər mənə "toxunan" hallarla qarşılaşdım ki...

- Son dəfə Nurlanı gördüyümüz gün - Fuadın oğlunu xəstəxanadan çıxardıb, evə gəldik. Əhmədin adına bişirilmiş tort Nurlanın çox xoşuna gəldi, təkrar istədi yedi... Tortu Nurlanın bəyənib yediyini bildiyindən, Nurlanla bağlı xüsusi günlərimizdə bütün israrlarımıza baxmayaraq həmin tortu bişirən Elnarə xanım, təkrar-təkrar təmənnasız bişirir.
- Balaca Nurlanın xəstəxana çıxışından bir gün əvvəl çəkilişlərlə əlaqədar olaraq, Nurlanın şəkillərini "Medikal Plaza" (28 May filialı) xəstəxanasına aparmışdıq. Şəkillər olan maşın qapıya yaxınlaşan kimi hamı köməyə qaçdı. Qa-

pıda duran mühafizəçiyə "Oğlum, şəkillər böyükdür, bunları qoymağa yer olarmı içəridə?" soruşdum. "Ana, yer olmasa mən sabahadək onları qucağımda saxlayaram" dedi...

Şəhid adından sui-isifadənin isə, qəti əleyhinəyəm. Bu məsələyə Fuadın reaksiyası isə daha kəskindir. Bildiyimiz ki, müharibə dövrü pandemiyanın ən çox yayılmış vaxtları idi. Maskasız gəzməmək qadağaları vardı. Bir gün bir nəfər Fuada "Sən niyə maskada gəzirsən? Çıxart at da maskanı. O böyüklükdə Şəhidin qardaşısan, kim sənə nə deyəcək ki?" deyir. Fuad sərt şəkildə "Mən o böyüklükdə Şəhidimin adını bir maska ilə əlaqədar hallandırmaram" deyə cavab verir. Çox vaxt taksi ilə evə gələndə, Fuad taksini 1-2 ev ya əvvəl, ya sonra saxlatdırır. Bir gün səbəbini soruşdum. "Ana o taksi sürücüsü qapıdakı Nurlanın barelyefini görüb puldan imtina edəcək. Pulu alacaqsa da, niyə sıxıla-sıxıla alsın ki? Qoy bilməsin Şəhid ailəsiyik" dedi...

Bəzən, gələcəkdə münaqişələr davam edərsə müharibəyə getməkdən söhbət düşəndə, Fuad hər dəfə "İlk mən gedərəm" deyir. Mən etiraz edəndə isə "Ana, mən müharibədən yayınsam, Nurlanın məzarının üstünə nə üzlə gedərəm?" deyir...



Nurlan Fuadla bir-birinə çox bağlı idilər. Onlar lap uşaqlıqdan belə, bir dəfə də olsun dalaşmadılar. Bir çox xasiyyətləri üst-üstə düşməsə də, mən heç vaxt Onların mübahisə etdiklərini, sözləşdiklərini görmədim. Saatlarca bir tərəfdə oturub söhbət edərdilər. Çox vaxt Fuad nəsə danışar, Nurlan gülməkdən uğunub gedərdi... Yaxınlaşıb, "Mən də qulaq asım da" deyən kimi, Nurlan durub məni qucaqlayar, "Sən dünyada ən gözəl çay dəmləyən Anasan, bir çay dəmlə, gətir içək də", yaxud "Dünyada heç kəs sənin

kimi meyvə doğraya bilmir, bir qab meyvə doğra gətir də, qab yekə olsun", deyib məni uzaqlaşdırardı. Onların Fuadla mehribanlığını kənardan müşahidə etmək mənim üçün necə böyük xöşbəxtlik idi... Bəzən mənə elə gəlirdi ki, Onlar bir-birini məni sevdiklərindən çox sevirlər. Buna görə də Fuad xaraktercə çox möhkəm biri olsa belə, Nurlanın Şəhadəti Fuadı sanki "qocaltdı"... Nurlan Şəhid olan gün "Mən 21 il əvvəl yox, bu gün yetim qaldım" deyibmiş... Özünü nə qədər tox tutmağa çalışsa da, onun içində nələr baş verdiyini bilirəm. Nurlanın Şəhadətinə qədər mən Fuadın ağladığını görməmişdim. Atası rəhmətə gedəndə də Nurlan ağlayır, Fuad baxışlarını bir nöqtəyə zilləyib durmuşdu. Nurlandan sonra Fuad Xiyabana gecələr gedər, gözləri ağlamaqdan qızarmış, şişmiş vəziyyətdə gələrdi. İndi də biz Fuadla Nurlanın yanına gedəndə, Xiyabana yaxınlaşdıqca Fuadın sifətinə baxanda içim parçalanır. İçinin hayqırtısı, qəlbinin tələtümü sifətinə hopur sanki...

***

Nurlanın həyatı hərbiyə bağlı idi. Mülki aləmdə çox az olurdu. Yalnız məzuniyyəti zamanı və bir də təlimlərə gedəndə ya gələndə 1 günlük üzünü görürdük. Ona görə də onun mülkü həyatda nəyəsə maraq göstərməyə, hər hansı bir işlə məşgul olmağa vaxtı çatmırdı. Evə gələndə vaxtını bizimlə, qardaşının qızı ilə, nişanlı olduğu illərdə isə nişanlısı ilə keçirirdi. Fuadın qızına

mənim adım qoyulub. Balaca Rahiləni çox sevirdi. Bir-birinə çox bağlı idilər. Rahilənin ad günlərinə 1 günlük də olsa icazə alıb gələrdi. Əmi gələndə Rahilə üçün bayram idi. Əl-ələ tutub Mcdonaldslar gəzmələr, şəhərə çıxmalar, dükanlara baş çəkmələr və sözsüz ki, çoxlu alış-verişlər... Həmişə Nurlan içəri girən kimi Rahilə qaçıb qucağına atılardı. Nurlan "əmini bir yekəə maç elə" deyərdi. Rahilə də var gücünü toplayıb uzun bir "maç" edər, sonda əmisi "yox olmadı, yekəəə maç elə" deyər, Rahilə yenidən ürəklə öpməyə çalışardı. Bu "proses" hər dəfə Rahilə yorulana qədər davam edərdi. Nurlan Şəhid olanda Rahilənin olanları anlamadan, şoka düşmüş halda "Əmi daha heçmi gəlməyəcək?" deyib ağlamağı indi də qulağımdadır. O Nurlanın Şəhadətindən sonra, əmisinin ona aldığı hədiyyələri - çantaları, oyuncaqları ortalıqdan götürdü. Səbəbini soruşanda "Xarab olmasın" dedi. Tez-tez bir kənara qısılıb için-için ağlayaraq "Kaşki əmi Şəhid olmasaydı" deməsi içimi sızım-sızım sızıldadır. Bu günlərdə atası Rahiləyə işlənmiş köhnə bir telefon aldı. Çöx sevinirdi ki, öz telefonu oldu. Dedim ki, bizim telefonları götürmə, hələlik bunu işlət, nənə özümə nə vaxtsa təzə telefon alanda, özümünkünü sənə verərəm". Dedi "Nənə, sənninkini istəmirəm, bunu istəyirəm. Əminin telefonuna oxşayır". Yalnız o deyəndən sonra fikir verdim ki, doğurdan görünüşcə Nurlanın telefonuna oxşayırmış... Rahilənin bütün ailə tablolarında Əmi də var...





27.09.2020-ci il tarixində II Qarabağ müharibəsi başlanan gündən Vətən torpaqlarının azad olunması uğrunda döyüşlərə qatıldı. Hələ müharibədən bir neçə aylar əvvəl hazırlıq üzrə təlimlər gedirdi. Həmin vaxt Nurlan Giləzi Təlim tədris mərkəzində işləyirdi. Ora keçiriləndə əvvəl heç xoşuna gəlməmişdi. "Mən döyüşçüyəm, mən əməliyyatçıyam, niyə məni müəllim keçiriblər" deyirdi. Mən də anayam da, "Lap yaxşı da oğlum, sakitcə müəllimliyini elə də" deyəndə, "Yaxşı, bundan sonra mənə "Nurlan hoca" deyərsiz" demişdi. Lakin müharibə başlananda Nurlanı ixtisaslı kadr kimi koordinasiya, xəritə və planların işlənməsi qrupuna daxil etdilər. Döyüş yolu Murovdan başladı, Hadrutda bitdi.

Müharibə dövründə Nurlan arxada koordinasiya qrupunda olmalı idi. Lakin döyüş yoldaşları, dostları Şəhid olduqdan sonra önə gəlib. Şəhid olduğu gün Hadrut uğrunda qızğın döyüşlər gedirmiş. Əlverişli bir mövqedə olan yoldaşlarına silah çatdırılmalıymış. Əslində o kapitan kimi Nurlanın işi deyilmiş. Lakin təchizata gedəcək gizir 2016-ci ilin aprel döyüşlərinin Qazisi imiş. Nurlan "Sənin ayağın zədəlidir. Sənə ağır olar, mən gedirəm" deyərək silah-sursatı aparıb özü gedir. Son dəfə döyüşə gedəndə, maşına qədgedir, sonra nə fikirləşirsə qayıdıb döyüş yoldaşına deyir "Qardaşımın nömrəsini yaz, başım bir iş gəlsə, ona zəng edin". Yoldaşı "Elə danıma, kağız yoxdu" deyə yayındırmaq istədikdə, cibindən pul çıxarıb üstünə Fuadın telefon nömrəsini yazır. Zarafatla yoldaşına "Qayıtsam qaytararsan, qayıtmasam xərcləyərsən" deyir, pulu verib gedir.

Sonradan təsadüfən Nurlanı şəklindən tanıyan bir əsgərin danışdıqları: "Mən şlaqbaumda durmuşdum. Bu kapitan gəldi dedi ki, aç şlaqbaumu. Mən oraların təhlükəli olduğunu, ora keçməyin qorxulu olduğunu dedim. Lakin o, "Sən başa düşürsənmi, orda yoldaşlarımız silahsızdır, mühasirəyə düşə bilərlər, ölə bilərlər? Aç şlaqbaumu!" deyə əmr etdi. Bir neçə vaxtdan eşitdim ki, həmin kapitan minaya düşüb..."

Nurlan müxtəlif rayonların və strateji obyektlərin azad olunmasında xüsusi şücaət göstərmiş və 11.10.2020-ci il tarixində Hadrut uğrunda gedən döyüşlərdə qəhrəmancasına Şəhadətə yüksəlmişdir.







Vətən müharibəsində göstərdiyi rəşadət və qəhrəmanlıqlara görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamları ilə "Azərbaycan bayrağı ordeni" və "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Kəlbəcərin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edildi.



***

Döyüş yolu haqqında bizdə çox az məlumat var. Lakin dəqiq bildiyimiz odur ki, Nurlan Mustafayev necə şərəflə yaşadısa, Vətən uğrunda, torpaqlarımız uğrunda, bayrağımız uğrunda, ismətimiz, namusumuz uğrunda şərəflə vuruşdu və Şəhadətə yüksəldi.

II Fəxri Xiyabanda dəfn olundu. O Xiyaban ki, bu gün mənim yeganə sakitləşə bildiyim, özümü onunla söhbət edirmiş kimi hiss etdiyim yerdir... Həmişə çalışıram ki, Nurlanın yanına insanların az olduğu vaxtda gedim. Sakitcə baş-başa söhbətləşim, dərdləşim, sual verim. Cavab almamağımla, susqunluğuyla yoxluğunu hiss edəndə isə hönkürüm, hayqırım... Amma Xiyaban heç vaxt ziyarətçisiz olmur. Həmişə adam olur. Ona görə də Nurlanla sakitcə pıçıldaşaraq, göz yaşı axıtmalı oluram... Fəxri Xiyaban mənim ruhumla cicminin görüş yeridir. Buna görə də Ora tez-tez gedirəm, Orada cismim ruhumla görüşür, birləşir və mən bundan qismən də olsa rahatlıq tapıram. Sonra isə... Sonra isə yenidən ruhumu Orada - Nurlanın yanında qoyub cismim qayıdır Fuadın yanına...



Nurlan hər an mənim qəlbimdədir. Evimizdə hər an Nurlan xatırlanır: "Bu yeməyi Nurlan xoşlayardı", "Nurlanın bundan acığı gələrdi", "Bu yerdə Nurlan belə deyərdi", "Bunu Nurlan

almışdı" və s.... Nurlan evlənəndə demək olar ki, bütün əşyalarını öz evinə apardı. Evimizdə Ondan çox az bir şeylər qalıb. Həmin şeylər toxunulmazdır. Vaxtilə Nurlanın Almaniyadan gətirdiyi qələm daim mənim çantamdadır, mən Nurlanın "Bakıkart"ından istifadə edirəm. Başqa kartlarla qarışıq düşməsin deyə o karta "N" işarəsi qoymuşam... Fuad ancaq Nurlanın dırnaqtutanından istifadə edir və başqa əşyalara qarşı çox səhlənkar olsa da, onu dərhal təmizləyib yerinə qoyur. Nurlanın əli dəyən hər şey bizim üçün müqəddəsdir. Ümumiyyətlə "N" hərfi bizim üçün müqəddəsdir. "N" hərfi olan hər şey sanki Nurlana aiddir. Köynəyimizdə "N", brelokumuzda "N".... 1996-cı ildə Bakıya köçəndə aldığımız evin nömrəsini evin sahibi aparırdı. Bizə dedi ki, Alatavada nömrələmə sərbəstdir. Ev 96-dır, əlifbanın hansı hərfini istəsən seçə bilərsən. Mən isə düşünmədən Nurlanın adının baş hərfi olaraq "N" hərfini seçmişdim - 96 N... O evin Nurlanın istifadə etdiyi açarı belə toxunulmazdır.

Otağımın bir hissəsi Nurlana aiddir, Onun şəkilləri, diplomları, şəxsi əşyaları... Hər dəfə otağa girəndə "Nurlan salam", çıxanda "Nurlan salamat qal"... Nurlan bizim and yerimiz, uyuduğu məzarlıq-Fəxri Xiyaban Ziyarətgahımızdır.

Həmişə özünə dediyim, indi də məzarı başında təkrarladığım bir ifadə var "Anan sənə qurban!". Həmişə "Mən sənə qurban!" deyərdi. "Elə demə, analar balalarına qurban olar" desəm də, hər dəfə israrla təkrar edərdi... və sonda qurban

oldu da... torpağına, Bayrağına, Vətəninə, Qarabağdan, yurd-yuvasından didərgin düşmüş soydaşlarımıza, isməti tapdanmış Ana-bacılarına, günahsız körpələrə... Mən həmişə Allahıma dua etmişəm ki, "Balalarıma gələn xəta-bəla mənə gəlsin!". Mən Nurlanın çiynində gedərdim, mən onun tabutuna çiynimi verməzdim. Nurlana etmək istədiyim, edə bilmədiyim tək bir şey budur. Bu da, əfsuslar olsun ki, məndən asılı olmayan bir şeydir... Ömürdən pay olmur! Olsaydı, həyatımın bütün qalan hissəsini tərəddüdsüz Ona qurban verərdim və özümü bununla xoşbəxt sanardım...



Nurlan mənim ürəyimin, canımın yarısı idi. Nurlan mənim canımdan can verdiyim bir parçam idi. Mən balalarımı Alatavada kiçik bir evdə böyütdüm. (Xatırladıqca içimi parçalayan bir haşiyə: Nurlanın tabutunu evimizin qapısından içəri keçirə bilmədilər. Nə qədər çalışdılar, o tərəfə-bu tərəfə çevirib salmaq istədilər, olmadı... Sonda məcbur olub tabutu qonşu həyətə qoydular. Mən Oğlumu qonşu həyətdə ağlayıb son mənzilə yola saldım...) O balaca otaqda özüm də bilmədən Qəhrəman yetişdirirəmmiş... Gələcəyin Vətən fədaisi, Qarabağ müdafiəçisi böyüyürmüş o balaca daxmada... Murovun, Cəbrayılın, Kəlbəcərin, Füzulinin, Xocavəndin, Hadrutun alınmasında qəhrəmanlıq göstərəcək igid böyüyürmüş... Mən Nurlana maddi baxımdan dəbdəbəli həyat yaşada bilmədim. Amma ona bolluca sevgi verdim. O sevginin içində Torpaq sevgisi vardı, Bayraq sevgisi vardı, Vətən üçün canını fəda edə biləcək qədər Vətən sevgisi vardı, cəsurluq vardı, Qarabağdan doğma yurd-yuvalarından didərgin düşmüş, yurd həsrətli soydaşlarımızın, namusu tapdanmış ana-bacıların təəsübkeşliyi vardı... Mən Nurlanı bu ruhda böyütdüm. Nurlan üçün Vətən Ana demək idi, Torpaq toxunulmazlıq demək idi, Bayraq enməzlik demək idi. Və qısa ömrünün sonunda Vətən Torpaqları üçün Şəhadətə yüksələrək Vətən Bayrağına büküldü. Həmin Bayraq evimizin ən qiymətli əşyasıdır. Evimizdə, qəlbimizdə, ağlımızda hər an yaşayan Nurlanın son yadigarıdır həmin Bayraq...

İstefada olan polkovnik leytenant - qohumu Anar Seyidov:

Mən Nurlan haqqında hər hansı bir xatirəmi yazmağı düşündükdə, bir tərəfdə nur üzlü Nurlanın gülümsəyərək insana müsbət emosiya bəxş edən baxışlarını, onunla söhbətlərimi, onun hərəkətlərini, üzündəki sanki bu Vətənin enişli-yoxuşlu yollarını xatırladan cizgilərini və baxışları ilə "Mən bu yolları gedərək, Vətənimin ayaq basılmayan yerlərinə ilk ayaq basan Qəhrəmanlardan olacağam" deyən bir qəhrəman obrazını, digər tərəfdə isə onu boya-başa çatdıran, oğlu üçün həm ana, həm da ata olan, daim övladları ilə qürur duyan, onlar üçün bu həyatın bütün çətinliklərinə sonsuz iradəsi ilə tab gətirərək təslim olmayan, indi oğlunu ömür boyu ürəyində yaşadacaq, üzgün baxışları ilə sanki "Mən sadəcə onun evdə olmadığına üzülürəm, bu üzümdəki kədərə baxıb mənim çarəsiz olduğumu düşünməyin, mən oğlumu böyüdüb Vətənim üçün fəda vermişəm, bununla qürurluyam, O həmişə bizimlədir, mən Onsuz deyiləm" deyərək özünə təsəlli tapan Ananı xatırladım. Vətənə sevgi ailədən başlayır. Nə qədər ailədə tərbiyən yüksək olsa, sənə Vətən sevgisi nə qədər çox təbliğ edilsə, o qədər vətənpərvər olacaqsan. Nurlan uşaqlıqdan vətənpərvər olmuşdu. Artıq 13 yaşında hərbi geyim formasının qürurunu dərk edərək Cəmşid Naxçıvanski adına liseyə daxil olaraq Vətəninə xidmətə başlamışdı. Vətən sevdası onu

Almaniya hərbi məktəbinə qədər apardı. Nurlan öz Vətəninə, xalqına, millətinə xidmət etmək üçün Almaniyadan savadlı bir hərbçi kimi qayıtdı. Biz Nurlanla söhbət edəndə, O həmişə "Xidmətimə cəbhə bölgəsindən başlamaq istəyirəm" deyərdi. Başqa ölkədən gəlib birbaşa cəbhəyə getməyin onun üçün çətin olacağını desəm də, Nurlan təkidlə öz arzusu ilə xidmətinə ön cəbhədən başladı. Əsgərlərinə olan qayğısını və diqqətini, hər dəfə məzuniyyətə gələndə, ehtiyata buraxılmış əsgərlərin Onunla görüşmək, Onu yad etmək istəklərindən açıqca görmək olurdu. Nurlanla söhbətimiz çox maraqlı olurdu. O bizə, xarici ölkələrdə və Azərbaycanda keçdiyi çətin kurslardan danışırdı. Ümumiyyətlə, bütün xidmətim boyu harda Nurlanın buraxılışından zabit görsəm, onlardan Nurlanı soruşmaq mənim üçün zövq idi. Çünki hamı onun bacarıqlı, mərd, vətənpərvər bir hərbçi olduğunu danışırdılar. Bunları eşitmək də təbii ki, çox qürurverici idi. Çox mehriban, səmimi bir insan idi. Qohum olmağımıza baxmayaraq, O həmişə subardinasiya qaydalarına riayət edərdi. Bu da Onun aldığı yüksək ailə və hərbi tərbiyədən xəbər verirdi. Nurlan sanki hərbi həyat üçün yaranmış bir insan idi. O, hərb həyatında ya ürəklərdə, ya cismən yaşayaraq bir iz qoyacaq zabit idi. Hər bir halda onun bu Vətən üçün bir fədakarlıq edəcəyi göz önündə idi. Nurlan Vətən üçün, bizim və övladlarımızın xöşbəxt yaşaması üçün canını fəda

etdi. Mən həmişə düşünürəm ki, görəsən Nurlan və Nurlan kimi qəhrəmanlarımız bizi görürmü? Bizim onlara nə qədər minnətdar olduğumuzu, onları heç zaman unutmayacağımızı bilirlərmi? Nurlanın dediyi söz unudulmazdır. O "Vətənə xidmət edirəm" demirdi, "Bütün vücudumla Vətənə xidmət edirəm" deyirdi. Nə qədər ki, Azərbaycanda Nurlan kimi qəhrəmanlar, Nurlanlar böyüdən Analar var, Azərbaycan Respublikası öndə gedən dövlətlərdən olaraq qalacaqdır.

QARDAŞI
FUAD MUSTAFAYEV

Nurlan mənim üçün təkcə böyük qardaş deyildi. Biz atamızı erkən yaşlarımızda itirmişdik. Ona görə də yaş fərqimizin az olmasına baxmayaraq, Nurlan mənim üçün ata əvəzi idi. Mən Nurlanın Şəhadətini eşidən anda yetim qaldığımı hiss etdim. Biz həm də dost idik, sirdaş idik. O mənim həyatda dayağım, çətin anlarımda hər hansı bir məsələ olsun, hər hansı bir vəziyyət olsun, köməyimdə duracaq biri idi. Hətta mən səhv elədiyim bir an olsa belə, müdafiəmdə durar, sonradan təklikdə düz hərəkət etmədiyimi, səhv etdiyimi deyərdi. Uşaqlıqdan həmişə bir yerdə olduq, birlikdə yedik, birlikdə oynadıq, birlikdə yatıb-durduq. Deyildiyinə görə xarici görkəmcə Nurlan atama çox oxşayırmış. Ona görə nənəm onu hiss olunacaq dərəcədə məndən

çox istəyirdi. Əvvəllər anamın izahlarına, sonradan isə özüm dərk etdikcə, nənəmin Nurlanı vaxtsız itirmiş oğluna oxşatdığına görə çox istədiyini anlayışla qəbullanırdım. Amma Nurlan özü bundan heç xoşlanmazdı. Nənəm hər şeyin yaxşısını, böyüyünü ona vermək istədikdə, tək olan bir konfetin belə onun yeməsini istədikdə əsəbiləşər, mənimlə bölüşmədən heç nəyi tək yeməzdi.

Nurlan 8-ci sinifdən Cəmşid Naxçıvanski adına hərbi liseyə getdi. O zamandan mən sanki fiziki cəhətdən tək qaldım. Səbirlizliklə həftə sonunu gözləyirdim. Şənbə-bazar günləri birlikdə olurduq. O günlərin bir saatını da ayrı qalmamağa çalışırdıq.

Almaniyada təhsil aldığı illərin il yarım hissəsi mənim hərbi xidmət müddətimə düşdü. Almaniyadan məzuniyyətə gələndə Cəlilabada hərbi hissəyə yanıma gəldi. Mən onda Sərhəd Qoşunlarının Göytəpə hərbi hissəsinin sərhəd zastavasındaydım. Ora valideyn görüşü nəzərdə tutulmamışdı. Çünki yol çox uzun və adi minik maşınları üçün keçilməz idi. Nurlan bunu bilsə də, mümkün olduğu yerə qədər maşınla, qalan yolu piyada görüşə gəlmişdi.

Biz az-az görüşsək də həmişə qəlbən birlikdə olduq. Mütəmadi zəngləşir, danışırdıq. Hansısa bir səbəbdən gec zəng etsəm, özü zəng edərdi.



Nurlanın telefon nömrəsini Onun üçün mən almışdım. Nurlanın Şəhadətindən sonra şəxsi əşyalarının bir hissəsi gəlsə də, telefonu gəlmədi. Mən həmin nömrəni aktivləşdirib işlədirəm. İlk günlər həmin nömrədən kiməsə zəng etməyə ehtiyat edirdim. Sonradan yavaş-yavaş hamı öyrəşdi. Aylar keçəndən sonra isə ürəyim əsə-əsə anama zəng etdim... onun hansı hala düşəcəyini bilsəmdə, həmin nömrəni şəxsi nömrəm kimi işlətmək istəyirdim. İndi gün ərzində anamla daha çox Nurlanın nömrəsindən danışırıq. Mən o nömrəni əsas telefonuma qoymuşam və ən vacib məsələləri o nömrə ilə həll edirik. Sanki, Nurlan da hər şeydən xəbərdar olsun deyə... Çünki Nurlan hər an bizimlədir, bizim içimizdə, yanımızdadır...



Həmişə lazım olan anlarda yanımda oldu. Bir qardaşın edə biləcəyi hər şeyi elədi. Hərbiçi olduğundan hansısa bir əlamətdar günlərimizdə yanımızda ola bilməməyinə çox sıxılırdı. Biz nə qədər bunu anlayışla qarşılasaq belə, onu sakitləşdirməyə çalışsaq belə, özü çox əsəbiləşirdi. 2012-ci ilin oktyabr ayının 26-sı mənim "Qız evi" tərəfdə toyum idi. Həyat yoldaşım Zaqataladan olduğundan, toy da orda idi. O zaman Nurlan Təlim Tədris mərkəzində zabit kursunda idi. Nurlana toya gəlməyə icazə verilmədi. Hərbi tərəf "yaxın qohumunun toyu haqqında arayış" tələb edir, mülki tərəf isə belə bir arayışının olmadığını iddia edirdi. Çox çalışsaq da rayona



Nurlansız getməli olduq. Toyun sonuna az qalmış birdən qapıda Nurlanı gördüm. O an "bəy" stolumdan necə qalxdığımı, Nurlana necə sarıldığımı təsəvvür edin... Nurlan kurs bitdikdən sonra yaxın dostumuzun maşını ilə rayona toya gəldi, toyda iştirak elədi, bütün gecəni yol gəlib, səhər yenidən kursa gəlib çatmışdı. Səhər kursda Nurlanı yuxulu görən müəllim səbəbini soruşur. Nurlan "Sadəcə yuxusuzam" desə də, kurs yoldaşları səbəbi müəllimə açıqlayırlar. Müəllim "Halal olsun sənə... mən icazə verirəm, keç arxa partada yat" deyir...



Müharibənin başlanacağı barədə yalnız mənə demişdi. Çox yüksək döyüş ruhunda idi. Tam şəkildə qələbəyə köklənmişdi. "Mən də könüllü gedəcəm" dedim. "Əlbəttə, lazım gəlsə sən də gələcəksən. Amma hələ yox. Ümid edirəm ki, Ordu alacaq Qarabağı" dedi.

Nurlan mənim fəxr, qürur yerimdir. Mənim üçün Nurlan Şəxsiyyət idi. Bəzən mənə elə gəlirdi ki, mən qardaşımı gözümdə böyüdürəm. Amma bir dəfə bir döyüş yoldaşının Nurlan haqqında "Nurlan əsil Azərbaycan kişisinin, Azərbaycan ərəninin obrazı idi" deməsindən sonra əmin oldum ki, mən düz düşünürəm.

Nurlanın Şəhadəti xəbərini mənə növbədə olduğum zaman verdilər. Telefonum içəridə kabinetdə qalmışdı. Mən isə ərazini yoxlamağa çıxmışdım. Qayıdanda telefonumda müxtəlif nömrələrdən 32 zəng olduğunu gördüm və... həmin an sanki içim titrədi. Mənə tanış olmayan ilk nömrəni yığdım. Yanılmamışdım... Telefonda döyüş yoldaşı ağlamaqdan kallaşmış səslə "Nurlan Şəhid olub" deyəndə, mən də sanki həmin anda öldüm... Məhləmizə necə gəldiyimi, hərbi hissədən gələnlərlə, küçədə Nurlanı qarşılamağa hazırlaşan qonum-qonşularla nə danışdığımı bilmirəm... Sanki mən artıq yox idim... Səhər açılanda hər şeydən xəbərsiz Anama bu xəbərin necə veriləcəyini düşünmək belə istəmirdim. Amma bununla belə toparlanmaq lazım gəldiyini, Qardaşımı adına layiq yola salmaq lazım gəldiyini anlayırdım...

Səhəri gün dünyanın ən ağır səhnəsini təcili yardım maşınında yaşadım. Həyatımın Qəhrəmanı taxtadan hazırlanmış bir tabutda yatırdı. Atamı erkən yaşlarımdan itirsəm də, ilk dəfə həmin gün yetim qaldığımı hiss etdim. İlk dəfə həmin gün həyata məğlub oldum. İlk dəfə həmin

gün çarəsiz qaldım. İlk dəfə həmin gün kimsəsiz qalmağın nə olduğunu bildim. Üzündə təbəssüm uzanmışdı. Həmin təbəssümü mən də üzümdə yaratmaq istədim, bacarmadım... İlk dəfə sındım və həyatımın geri qalan hissəsini sınmış yaşayacağam...

Həmişə Nurlanın və Onun kimi Qəhrəman Şəhidlərin adını uca tutmağa çalışıram. Nurlan kimi Qəhrəmanın qardaşı olduğum üçün çox qürur duyuram...



SON SÖZ

Ömrümdə ilk dəfədir ki, yazı masasına, kompüterə yaxın gedə bilmirəm. Hər düymə basıldıqca barmağı tətikdə olan əsgər övladlarımız xəyalımda canlanır. Mən burda kompüterin klavyaturasından qopan səslərin beynimdəki əks-sədasından narahat oluram. İndi gör, o od-alovun içində barmaqları tətikdə, gözləri düşmən səngərində olan və hər atəş səsindən çiyinləri titrəyən oğullarımız nə çəkir?! Əslində mən özümü bu kitabın müəllifinin yerinə qoyub hər sətirdən sonra "Can bala!" deyirəm. Çox erkən atasızlığın acısını yaşayan, kiçik ikən "böyük kişi" yükünü çiyninə götürən və hər addımda anasının köməyinə yetməyə çalışan, ona təsəlli verməyə çalışan Nurlanın üz cizgilərini gözlərim önündə canlandırıram. Qədd-qamətli, parlaq gözləri həyat eşqi ilə dolu, çalışqan, çiynini ən ağır işin altına versə də, anasına kömək etdiyini düşünüb sevinən Nurlanın və... Təəssüf ki, bu kitabdakı hər xatirəni qələmini göz yaşlarına batırıb yazan bir ananın zərif, kövrək səsini eşidirəm: " Mənim balam o qədər gözəl idi ki..."

Bütün Şəhidlər gözəldir, əziz bacım. Sanki Allah-Təala gənclərin hamısını öz dərgahındakı məqamında Şəhid kimi qarşılamaq üçün yaratmışdı. Sənin hər cümlən, hər xatirən, illər boyu çəkdiyin zəhmətin, əziyyətin müqabilində qazandığın "göz yaşları" ilə süslənib. Ha düşün, ha daşın, heç nəyi dəyişə bilməyəcəksən! İndi sənə qalan, oğlunun dillər əzbəri olan adı, şöhrətidir. Və əmin ol ki, bu da hər oğula qismət olan, hər Ananın çəkə və yaşada bilməyəcəyi bir nəsnədir. Deyirlər ya, Şəhidlər evdən yox, eldən gedir.

Təsəlli üçün yazmıram, amma Nurlanlar bizim hamımızın övladı, hamımızın and yeridir. İllər ötəcək hamımızın yarası qaysaq bağlayacaq, həyat öz axarı ilə davam edəcək, amma qəhramanlar sırasında Nurlanın da adı fəxrlə, iftixarla çəkiləcək. Bir hədisdə deyilir ki, Tanrı dərgahında Peyğəmbərlərdən sonra Şəhidlər gəlir. Amma Peyğəmbərlər belə etiraf edir ki, bu yüksək, bu ali məqamda Şəhidlər bizdən öndə dayanırlar. Çünki onlar Vətən adlı müqəddəs bir varlığın azadlığı, səadəti, namusu, qeyrəti uğrunda canlarından keçənlərdir. Sizin üçün indi çox ağırdır. Hər cümlənizin sonunda qoyduğunuz nöqtə gözünüzdən axan bir damla yaşla möhürlənib. Amma ... Biz hamımız sizin yanınızdayıq. Sizin dərtdaşınız, sizin sirdaşınızıq. Başınızı dik tutun, qürurlu gəzin! Çünki siz, elə bir oğulun Anasısınız ki, bu gün ailəsinin başını aşağı edən, ona dərd üstünə dərd gətirən, hər gün " səni doğan yerdə daş doğaydım" deyən analar sizə həsəd aparırlar - " Kaş mənim də oğlum Şəhid olaydı" deyirlər. Hara baxsalar, hara dönsələr də yenə sizə həsəd aparan onlarla ailə, yüzlərlə Ana var. Amma sizin övladlarınız, xüsusilə Nurlan kimi Anasını, Vətənini sevən oğullar haqq yolunu seçməyi bacarıblar. Və hər iki cahanda, hər iki dünyada alınları açıq, üzləri ağdır.

Övlad haqqında xatirə yazmağın nə qədər ağır olduğunu başa düşürəm. Hər sətri, hər kəlməni göz yaşınız, ürəyinizin qanı ilə yazdığınızı bilirəm. Elə ona görə də əllərinizdən və alnınızdan öpürəm. Allah Nurlanın və onunla bir məqamda dayanan bütün şəhidlərimizin ruhunu bu vətənə duaçı etsin.

Bu şeir də Nurlana və onun timsalında bütün Şəhidlərə ithaf olunur:

QƏLƏBƏ HAQQIN HALAL

Tərə batan gül qoxulu telinə qurban, oğul!
Hədəfi vur!- hayqıran dilinə qurban, oğul,
Tətik çəkən barmağına, əlinə qurban, oğul!
Yolun açıq olsun, Qələbə haqqın halal!

Qartalısan, şahinisən Alagözün, Murovun,
Qanlı olsun bu döyüşdə hər şikarın, hər ovun,
Haqq sənindir, zəfər sənin bir kimsədən yox qorxun!
Vur düşməni, get irəli, Qələbə haqqın halal!

Yolunuzu gözləyirdi Şuşa, Laçın, Kəlbəcər,
Şəhid qanı içən yurdda qazılmasın qoy səngər!
Qarabağa sən toxum səp, torpağını ək, becər!
Allah sənə qüvvət versin, Qələbə haqqın halal!

30 illik həsrət bitdi, sülh gətirdin yurduma,
Elim-obam əhsən deyir, bax, müzəffər Orduma!
Sən qalibsən,sən qəhrəman, sən dayanma, sən durma!
Baş tacımız, göz nurumuz Qələbə haqqın halal!

Sağ ol, var ol, Baş komandan, ehtişamın mübarək!
Haqq yolunda yaratdığın kəhkəşanın mübarək!
Qətiyyətin, şücaətin, hər nişanın mübarək,
Bu səfərdə qazandığın Qələbə haqqın halal!

Sizi dostlar alqışlayır, düşmənlərsə olub lal,
Dünya yenə dayan deyir, dinləmə, öcünü al,
Şəhidlərin son andıydı,Torpaq,Vətən, İstiqlal!
Azərbaycan haqq sənindir, Qələbə haqqın halal!

Bu savaşın dadı qandır, duzu qan,
Bu torpağa qurban getdi neçə igid, neçə can !
Bu yerlərə azadlığı gətirənə can qurban,
Ədalətlə qazandığın Qələbə haqqın halal!

Qarabağın hər yerində qoy ucalsın bayrağım,
Doğma yerlər kül içində qoy yandırsın çırağın!
Laçın yenə qucaq açıb qarşılasın qonağın,
Kəlbəcərdən səda gəlsin, Murov alsın sorağın,
Ellər səni alqışlasın, Qələbə haqqın halal!

Şəhid olmuş hər igid sənin övladın, balan,
Dərdin dağ –daş əridər, olum dərdinə qurban,
Səbrini qoy bol etsin sənin Uca yaradan
Qamətini şax tut sən, ucasan ucalardan,
Qələbədə var payın, getsin üzündən məlal,
Başını uca tut bacım, Qələbə haqqın halal!

Telli Pənahqızı









MÜNDƏRİCAT:

Xüsusi təyinatlı qüvvələrin kapitanı
şəhid Mustafayev Nurlan Hamlet oğlu 3
Təltifləri: 7
Ön söz 8
Nurlanmış xatirələr 9
Müharibə ilə doğmalaşanlar 13
Hərbi lisey illəri 21
Nənənin yuxusu 68
Qardaşı Fuad Mustafayev 95
Qələbə haqqın halal 105

Naşir: İsmayıl Ələkbərov

Kitab hazır depozitivlərdən istifadə edilərək
"GƏNCLİK" nəşriyyatının mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 30.09.2022
Kitabın formatı: 60x84 1/16.
Həcm: 7 ç.v.
Tiraj: 100

Ünvan: Mətbuat prospekti, 529-cu məh.


VƏTƏN SAĞ OLSU